“UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə

“UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

MÜNDƏRİCAT

	Səhifə
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI	1
MÜSTƏQİL AUDİTORLARIN RƏYİ	2-3
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI:	
Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat	4
Maliyyə vəziyyəti haqqında hesabat	5
Kapitalda dəyişiklik haqqında hesabat	6
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat	7-8
Maliyyə hesabatları üzrə qeydlər	9-56

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR BƏYANAT
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə, "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin ildə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-ə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 12 iyun 2020-ci il tarixində cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

Cəmiyyət adından:

Unicapital İnvestisiya Şirkəti açıq səhmdar cəmiyyəti · Unicapital Investment Company Open Joint Stock

Nadir Babazadə
Baş menecer vəzifəsini icra edən

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

Cavid Məmmədov
Baş mühasib

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarı və İdarəetmə Heyətinə:

Rəy

Biz "Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2019-cu il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üçün maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

Rəy üçün Əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

İzahedici Paraqraf

Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar

Şərti rəy bildirmədən diqqətinizi maliyyə hesabatlarının 7 saylı Qeydinə cəlb edirik. Cəmiyyətin əlaqəli tərəflərlə əməliyyatlar üzrə əhəmiyyətli sayılan qalıqları və əməliyyatları mövcuddur. Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər.

Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Baker Tilly Azerbaijan

12 iyun 2020-ci il
Bakı, Azərbaycan Respublikası

"UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Azərbaycan Manatı ilə)

	Qeydlər	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə
Əməliyyat gəlirləri	7, 8	1,043,808	788,561
Cəmi gəlirlər		**1,043,808**	**788,561**
İşçi heyəti ilə bağlı xərclər	7, 9	(367,702)	(334,268)
Ümumi və inzibati xərclər	7, 9	(202,714)	(109,634)
Əməliyyat mənfəəti		**473,392**	**344,659**
Faiz gəlirləri	7, 10	28,297	27,767
Faiz xərcləri	7, 11	(22,245)	(2,842)
Xarici valyuta ilə edilmiş əməliyyatlar üzrə xalis gəlir		-	14,695
Mənfəət vergisindən əvvəl gəlir		**479,444**	**384,279**
Mənfəət vergisi xərci	12	(86,155)	(84,208)
İl üzrə xalis mənfəət		**393,289**	**300,071**
İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR		**393,289**	**300,071**

Cəmiyyət adından:

Nadir Babazadə
Baş menecer vəzifəsini icra edən

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

Cavid Məmmədov
Baş mühasib

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

	Qeydlər	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
AKTİVLƏR			
Uzunmüddətli aktivlər:			
Əmlak və avadanlıqlar	13	24,960	40,917
Qeyri-maddi aktivlər	14	14,955	16,880
İnvestisiya qiymətli kağızları	7, 15	60,000	60,000
Aktivdən istifadə hüququ	16	7,914	-
Təxirə salınmış mənfəət vergisi aktivləri	12	1,209	-
Cəmi uzunmüddətli aktivlər		**109,038**	**117,797**
Cari aktivlər			
Pul vəsaitləri və onların ekvivalentləri	7, 17	683,544	748,804
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	7, 18	1,006,218	673,482
Əsas brokerdən alınacaq vəsaitlər	19	3,490,798	1,856,524
Alınacaq komissiya haqları	7, 20	35,075	60,603
İnvestisiya qiymətli kağızları	7, 15	499,941	255,024
Digər aktivlər	21	13,020	40,083
Cəmi cari aktivlər		**5,728,596**	**3,634,520**
CƏMİ AKTİVLƏR		**5,837,634**	**3,752,317**
ÖHDƏLİKLƏR VƏ KAPİTAL			
ÖHDƏLİKLƏR :			
Uzunmüddətli öhdəliklər			
Borc vəsaitlərinin uzunmüddətli hissəsi	22	-	117,229
Təxirə salınmış mənfəət vergisi öhdəlikləri	12	-	812
Cəmi uzunmüddətli öhdəliklər		**-**	**118,041**
Cari öhdəliklər			
Müştərilərə ödəniləcək məbləğlər	24	4,378,241	2,533,185
İcarə öhdəlikləri	23	8,512	-
Uzun müddətli borc vəsaitlərinin cari hissəsi	22	-	52,969
Digər öhdəliklər	7, 25	20,865	11,395
Cəmi cari öhdəliklər		**4,407,618**	**2,597,549**
Cəmi öhdəliklər		**4,407,618**	**2,715,590**
KAPİTAL:			
Nizamnamə kapitalı	26	300,000	300,000
Bölüşdürülməmiş mənfəət		1,130,016	736,727
Cəmi kapital		**1,430,016**	**1,036,727**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**5,837,634**	**3,752,317**

Cəmiyyət adından:

Nadir Babazadə
Baş menecer vəzifəsini icra edən

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

Cavid Məmmədov
Baş mühasib

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

"UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Azərbaycan Manatı ilə)

	Nizamnamə kapitalı	Bölüşdürülmə-miş mənfəət	Cəmi kapital
1 yanvar 2018-ci il	**300,000**	**566,656**	**866,656**
İl üzrə cəmi məcmu gəlir	-	300,071	300,071
Bəyan edilmiş dividendlər	-	(130,000)	(130,000)
31 dekabr 2018-ci il	**300,000**	**736,727**	**1,036,727**
İl üzrə cəmi məcmu gəlir	-	393,289	393,289
31 dekabr 2019-cu il	**300,000**	**1,130,016**	**1,430,016**

Cəmiyyət adından:

Nadir Babazadə
Baş menecer vəzifəsini icra edən

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

Cavid Məmmədov
Baş mühasib

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

"UNİCAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2019-CU İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
(Azərbaycan Manatı ilə)

	Qeydlər	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə
ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:			
Mənfəət vergisindən əvvəl gəlir		479,444	384,279
Nağdsız vəsaitlər üzrə düzəlişlər:			
Köhnəlmə və amortizasiya	13, 14	38,521	11,256
Faiz gəliri	10	(28,297)	(27,767)
Faiz xərci	11	22,245	2,842
Xarici valyuta ilə edilmiş əməliyyatlar üzrə xalis gəlir		-	(14,695)
Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri		**511,913**	**355,915**
Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər			
Alınacaq komissiya haqlarında xalis dəyişiklik		25,528	206,690
Əsas brokerdən alınacaq vəsaitlər üzrə xalis dəyişiklik		(1,634,274)	(696,614)
İstifadəsi məhdudlaşdırılmış əmanətlər üzrə xalis dəyişiklik		(332,736)	(509,507)
Digər aktivlərdə xalis dəyişiklik		(25,590)	70,597
Müştərilərə ödəniləcək vəsaitlər üzrə xalis dəyişiklik		1,845,056	861,990
Digər öhdəliklər üzrə xalis dəyişiklik		9,470	(920)
Ödənilmiş mənfəət vergisi və faizindən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri		**399,367**	**288,151**
Borc vəsaitlərində ödənilmiş faiz		(19,899)	(103,706)
İcarə öhdəliklərində ödənilmiş faiz	23	(2,544)	-
Ödənilmiş mənfəət vergisi		(33,023)	(112,623)
Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri		**343,901**	**71,822**
İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ			
Əmlak və avadanlıqlar üzrə ödənişlər		(1,645)	(43,621)
Qeyri-maddi aktivlər üzrə ödənişlər		(2,500)	(16,400)
İnvestisiya qiymətli kağızlarının satın alınması		(244,917)	(250,000)
İnvestisiya qiymətli kağızlarının satışı və satınalınması üzrə daxilolmalar		-	340,020
Alınmış faizlər		28,297	22,743
İnvestisiya fəaliyyətinə (yönələn)/daxil olan xalis pul vəsaitləri		**(220,765)**	**52,742**
MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ			
Borc vəsaitləri üzrə daxilolmalar	22	595,000	170,000
Borc vəsaitlərinin geri ödənilməsi	22	(765,000)	-
İcarə öhdəliklərində əsas ödəniş	23	(18,396)	-
Ödənilmiş dividendlər		-	(130,000)
Maliyyələşdirmə fəaliyyətinə (yönələn)/daxil olan xalis pul vəsaitləri		**(188,396)**	**40,000**

	Qeydlər	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTMA/		(65,260)	164,564
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*	17	748,804	584,240
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*	17	683,544	748,804

Cəmiyyət adından:

Nadir Babazadə
Baş menecer vəzifəsini icra edən

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

Cavid Məmmədov
Baş mühasib

12 iyun, 2020-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

1. GİRİŞ

Cəmiyyət və onun əsas fəaliyyəti

"Unicapital İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti ("Cəmiyyət") 30 oktyabr 2007-ci il tarixində Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və təsis olunmuşdur. Cəmiyyət 19 dekabr 2007-ci il Azərbaycan Respublikası Vergilər Nazirliyinin 1401258741 saylı şəhadətnaməsi əsasında fəaliyyət göstərir.

Cəmiyyətin əsas fəaliyyəti yerli qiymətli kağızlar bazarında investisiya qoymaq istəyən müştərilərə broker xidmətlərinin və əsasən qiymətli kağızlarla əməliyyatlar ilə bağlı xidmətlərin göstərilməsidir. Xidmətlərin siyahısına brokerlik, diler, aktivlərin idarə edilməsi və onlayn ticarət platformasına giriş daxildir.

31 dekabr 2019 və 2018-ci il tarixlərinə Cəmiyyətin mülkiyyət strukturu aşağıdakı kimi olmuşdur:

Səhmdar	**31 dekabr 2019-cu il**	**31 dekabr 2018-ci il**
"Unibank" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyəti	100%	100%
Cəmi	**100%**	**100%**

31 dekabr 2019 və 2018-ci il tarixlərinə Cəmiyyətə nəzarət cənab Eldar Qəribova məxsusdur.

Cəmiyyətin hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer

Cəmiyyətin hüquqi ünvanı Rəşid Behbudov küçəsi 55, Nəsimi rayonu, Bakı şəhəri, Azərbaycan Respublikasıdır.

2. CƏMİYYƏTİN FƏALİYYƏT MÜHİTİ

Cəmiyyət fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir. Azərbaycan hökuməti iqtisadi islahatları və ölkənin hüquqi, vergi və qanunvericilik çərçivəsində inkişafını davam etdirir. Azərbaycan iqtisadiyyatının gələcək davamlı inkişafı, əsasən bu islahatlardan və sektordakı tərəqqidən, eləcə də hökümət tərəfindən iqtisadi, maliyyə və pul siyasəti üzrə həyata keçirilmiş tədbirlərdən və Azərbaycan manatı ilə xam neftin sabit qiymətlərindən asılıdır.

2015-ci il ərzində Azərbaycanın iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının devalvasiyası nəticəsində mənfi təsirlərə məruz qalmışdır. Bu isə kapital çıxısının azalmasına, kapital xərclərinin artmasına, inflyasiya və iqtisadi inkişaf ilə bağlı qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu geriləmənin qarşısını almaq üçün Azərbaycan hökuməti islahatların sürətləndirilməsi və maliyyə sisteminin dəstəklənməsi üçün tədbirlər planı hazırlamaşıdır. Azərbaycan Respublikasının Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir.

Bundan əlavə, 2018-ci ildə hökumət Azərbaycan manatının sabitliyi ilə əlaqədar olaraq pul siyasətini davam etdirmiş və Azərbaycan manatını sabitləşdirən xarici valyuta ehtiyatlarını ayırmışdır. Bu siyasət 2019-cu ildə makro-iqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilmişdir.

Cəmiyyətin rəhbərliyi, makroiqtisadi mühitdəki dəyişiklikləri izləyir və yaxın gələcəkdə Cəmiyyətin fəaliyyətinin dayanıqlığını və inkişafını dəstəkləmək üçün zəruri hesab etdiyi tədbirləri görür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. Fitch və S&P Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. Moody's Investors Service, ölkə üçün "Ba2" kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı əsasən hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik, Cəmiyyətin fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların, Bank maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Rəhbərlik hazırda müxtəlif neft qiymətləri üzrə həssaslıq təhlili həyata keçirir və biznesin davamlılığını təmin etmək üçün müvafiq tədbirlər planı hazırlayır.

3. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

Hesabatların uyğunluğunun bəyanı

Cəmiyyətin 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

Fasiləsizlik prinsipi

Bu maliyyə hesabatları Cəmiyyətin daimilik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin likvidasiyasına nə istək, nə də ehtiyac olmayacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcud deyil. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin daimilik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Daimilik prinsipi təxminlərinin rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən təxminlərin edilməsi vacibdir.

Təqdimatın digər əsasları

Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Bu maliyyə hesabatları, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır.

Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-yə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

Cari və ya uzunmüddətli kateqoriyaya təsnifat

Cəmiyyət cari/uzunmüddətli təsnifat meyarları əsasında maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri təqdim edir. Cəmiyyət aşağıdakı hallarda aktivləri cari aktiv kimi təsnifləşdirir:

- Cəmiyyətin adi əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanıldıqda və ya realizasiya olunması ehtimal olunduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- hesabat tarixindən sonra ən az on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Cəmiyyət aşağıdakı hallarda öhdəlikləri cari öhdəlik kimi təsnifləşdirir:

- Cəmiyyətin adi əməliyyat dövründə onların ödənilməsi nəzərdə tutulduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- Cəmiyyət öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli kimi təsnif edir.

Gəlir və xərclərin tanınması

15 saylı MHBS müştərilərlə bağlanmış müqavilər üzrə gəlirləri hesablamaq üçün beş-addımlı bir model təqdim edir. 15 saylı MHBS-yə uyğun olaraq beş-addımlı model aşağıdakı kimidir:

- 1-ci addım: Müştərilərlə bağlanmış müqavilə(lər)i müəyyən etmək;
- 2-ci addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
- 3-cü addım: Əməliyyat qiymətini müəyyən etmək;
- 4-cü addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci addım: Müəssisə müqavilə öhdəliklərini yerinə yetirirsə (yetirdiyi zaman) gəlirin tanınması.

15 saylı MHBS-yə uyğun olaraq gəlirlər, müəssisənin mal və xidmətlərin müştəriyə ötürülməsi hüququ üzrə ehtimalı əks etdirən məbləğdə tanınır. Müştərilərlə müqavilələrdən əldə edilən gəlir, Cəmiyyətin mal və xidmətlərin müştəriyə ötürülməsi üzrə öhdəliyi yerinə yetirən kimi və ya yerinə yetirdikdən sonra tanınır. Məhsul və ya xidmət müştərinin həmin məhsulun və ya xidmətin nəzarəti altında olduqda ötürülür. Bu, ümumiyyətlə, məhsulun fiziki olaraq müştərinin olduğu əraziyə və ya digər çatdırılma mexanizminə köçürüldüyü zaman baş verir. Gəlir müştəri ilə müqavilədə nəzərdə tutulan ödənişlə, endirim, imtiyaz və vergilərlə çıxmaqla ölçülür.

Faiz gəliri və xərclərinin tanınması

Faiz gəliri və xərcləri, faiz dərəcəsi metodundan istifadə etməklə hesablama əsasında faiz gətirən alətlər üzrə mənfəət və ya zərər hesabatında qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar, qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. 26-cı Qeydə baxın.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya edilmiş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir.

Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

Maliyyə alətlərinin ilkin tanınması

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilk öncə ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb-satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərltərlə həyata keçirilən" alış və satışlar) Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

Maliyyə alətlərinin təsnifatı

Maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGVƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZVƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- Müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- Həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD-də təsnif edilir.

Bununla yanaşı, ilkin tanıma zamanı Cəmiyyət amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

Biznes modelinin qiymətləndirilməsi

Cəmiyyət maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirir, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəriciləri necə qiymətləndirilir və Cəmiyyətin rəhbərliyinə necə çatdırılır;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerləri necə mükafatlandırılır – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Cəmiyyəti məqsədinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Cəmiyyət alətin müqavilə şərtlərini nəzərə alır. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edir.

Qiymətləndirmə zamanı Cəmiyyət aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- bankın iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər məs. reqressiz aktivlər; və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məs. faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

Maliyyə alətlərinin yenidən təsnifi

Maliyyə aktivləri Cəmiyyətin maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

Maliyyə alətlərinin dəyərsizləşməsi – EOKZ üzrə kredit zərəri ehtiyatı

Cəmiyyət AD və DMGVƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə EOKZ-u perspektiv əsasda ölçür. Cəmiyyət EOKZ-u ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır.

EOKZ ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimallı məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmuş borc vəsaitləri EOKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatında göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üçün, EOKZ üzrə ayrı ehtiyat, maliyyə vəziyyəti haqqında hesabatında öhdəlik olaraq tanınır. DMGVƏD-də borc alətləri üçün EOKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya dəyərindəki dəyişiklik, mənfəət və ya zərər və digər qalıq dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər DMGVƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

Cəmiyyət dəyərsizləşmə üzrə üç mərhələli model təqdim edir. Bu model ilkin tanımadan sonra kredit keyfiyyətində dəyişikliyə əsaslanır. İlkin tanımada dəyərsizləşməyən maliyyə aləti 1-ci Mərhələyə təsnif edilir. 1-ci Mərhələdə maliyyə aktivləri EOKZ-un ömürlük hissəsinə bərabər olan miqdarda növbəti 12 ay ərzində mümkün olan nəticələrə və ya daha qısa müddətdə ("12 aylıq EOKZ") müqavilə müddətinə qədər ölçülür. Əgər Cəmiyyət KRƏA-nı ilkin tanımadan sonra müəyyən edirsə, aktiv 2-ci Mərhələyə köçürülür və onun EOKZ-u ömürlük EOKZ əsasında, müqavilə əsasında son ödəmə müddətinə qədər, lakin ehtimal olunan ödənişlər nəzərə alınmaqla hesablanır, əgər varsa ("Ömürlük EOKZ"). Cəmiyyətin KRƏA-nı müəyyən etdiyi haqqında 28 saylı Qeydə nəzər salın. Əgər Cəmiyyət maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsini müəyyən edirsə, aktiv 3-cü Mərhələyə köçürülür və EOKZ Ömürlük EOKZ ilə ölçülür. Cəmiyyətin kredit dəyərsizləşməsi üzrə aktiv və defolt anlayışları 28-ci Qeyddə açıqlanır. Satınalındıqda və ya əldə edildikdə kredit dəyərsizləşməsinə uğramış aktivlər ("SƏKD") üçün EOKZ hər zaman Ömürlük EOKZ ilə ölçülür. SƏKD aktivləri ilkin tanınma zamanı, məsələn, əldə edilmiş dəyərsizləşdirilmiş kreditlər kimi dəyərsizləşmiş maliyyə aktivləridir. EOKZ ölçülməsində istifadə edilən giriş, fərziyyə və qiymətləndirmə üsulları haqqında, eyni zamanda Cəmiyyətin EOKZ modellərində ehtimal edilən məlumatları necə əhatə etdiyini izah edir.

Maliyyə vəziyyəti haqqında hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi

EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi qalıq dəyərindən çıxılmaqla;
- kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri: ümumiyyətlə, ehtiyat kimi;

- maliyyə aləti həm çıxarılmış, həm də istifadə edilməmiş komponentdən ibarət olduğu halda və Cəmiyyət, kredit öhdəliyi komponenti üzrə EOKZ-ni çıxarılmış komponentdən ayrı olaraq müəyyən edə bilmədiyi halda: Cəmiyyət hər iki komponent üzrə birgə zərər ehtiyatı təqdim edir. Birləşdirilmiş məbləğ yerinə yetirilmiş komponentin ümumi qalıq dəyərindən çıxılmaqla təqdim edilir. Çıxarılmış komponentin ümumi məbləği üzrə zərər ehtiyatının hər hansı bir hissəsi ehtiyat kimi təqdim olunur; və

- DMGVƏD-də ölçülən borc alətləri: aktivlərin qalıq məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda.

Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri və digər qısa ödəniş müddətinə, yəni əldə olunduğu tarixdən üç ay və ya daha az ödəniş müddətinə malik olan yüksək likvidlik dərəcəsinə malik qoyuluşlar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınırlar, çünki: (i) müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-ni təqdim edir, və (ii) onlar DMGƏD olaraq təyin edilmir.

İstifadə məhdudiyyəti olan vəsaitlər isə pul vəsaitləri və onların ekvivalentlərinə daxil edilməmişdir. Hesabat tarixindən sonra ən az on iki ay ərzində dəyişdirilmək və ya öhdəliyin əvəzini ödəmək məqsədləri ilə istifadəsi məhdudlaşdırılmış qalıqlar digər uzunmüddətli aktivlərinə daxil edilir.

Əsas brokerdən alınacaq vəsaitlər

Əsas brokerdən ticarət və ya idarəçilik məqsədləri ilə alınacaq vəsaitlər, müqavilə üzrə nağd pul vəsaitlərini toplamaq və ya həm müqavilə üzrə nağd pul vəsaitlərini toplamaq həm də maliyyə aktivini satmaq xarakteri daşımadığı üçün bu aktivlər ədalətli dəyərlə ölçülür və MZVƏD kateqoriyası üzrə tanınır.

Borc qiymətli kağızları üzrə investisiyalar

Biznes modeli və pul vəsaitlərinin hərəkəti xüsusiyyətlərinə əsasən, Cəmiyyət borc qiymətli kağızlarına qoyduğu investisiyaları AD, DMGƏD və ya MZƏD kateqoriyaları üzrə təsnifləşdirir. Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-ni təmsil edirsə və əgər onlar mühasibat uçotu mühitinin uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaltmaq üçün könüllü olaraq MZƏD-də təyin edilmirlərsə, belə investisiyalar AD-də təsnifləşdirilir.

Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması və satılması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-ni təmsil edirsə və əgər onlar MZƏD-də təyin edilirlərsə, DMGƏD-də təsnifləşdirilirlər. Bu aktivlər üzrə faiz gəlirləri effektiv faiz dərəcəsi metodundan istifadə edərək hesablanır və mənfəət və ya zərərdə tanınır. Gözlənilən kredit zərəri modelindən istifadə etməklə ehtimal olunan dəyərsizləşmə ehtiyatı il üzrə mənfəət və ya zərərdə tanınır. Qalıq dəyəri üzrə olan bütün digər dəyişikliklər DMG-də tanınır. Borc qiymətli kağızlarının tanınması dayandırılan zaman, əvvəllər DMG-də tanınan məcmu gəlir və ya zərərlər DMG-dən çıxarılaraq mənfəət və ya zərər hesablarında təsnifləşdirilir.

Borc qiymətli kağızları üzrə investisiyalar AD və ya DMGƏD-ə dair meyarlara cavab vermirsə, MZƏD-də təsnifləşdirilir. Bu opsiyanın tətbiqi müxtəlif mühasibat uçotu əsasları üzrə tanınan və ya ölçülən maliyyə aktivləri və maliyyə öhdəlikləri arasındakı mühasibat uçotu uyumsuzluğunu əhəmiyyətli dərəcədə azaldırsa, Cəmiyyyət ilkin tanınma zamanı MZƏD-də olan borc qiymətli kağızları üzrə investisiyaları qəti şəkildə təyin edə bilər.

DMGƏD-də olan kapital alətləri

İlkin tanımadan sonra, Cəmiyyət mütəmadi olaraq öz kapital investisiyalarını BMUS 32 “Maliyyə Alətləri: Təqdimat” üzrə kapital tərifinə cavab verən və ticarət üçün nəzərdə tutulmayan, DMGƏD-də olan kapital alətləri kimi təsnifləşdirməyi seçir. Bu cür təsnifat hər bir alət əsasında müəyyənləşdirilir.

Bu kapital alətləri üzrə gəlirlər və zərərlər heç vaxt mənfəət və ya zərərə çevrilmir. Cəmiyyət alətin dəyərinin bir hissəsinin bərpası kimi daxilolmalar üzrə mənfəət əldə etməsi və bu halda belə gəlirlərin DMG-də qeydə alınması halı istisna olmaqla, dividentlər ödəmə haqqı təqdim edilən zaman digər gəlir kimi mənfəət və ya zərərdə tanınır. DMGƏD-də olan kapital alətləri dəyərsizləşmə üzrə qiymətləndirməyə məruz qalmır. Bu alətlərin silinməsindən sonra yığılmış yenidən qiymətləndirmə ehtiyatı bölüşdürülməmiş mənfəətə köçürülür.

Alınacaq komissiya haqları

Alınacaq komissiya haqları effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyərində ölçülür.

Cəmiyyət, alınacaq komissiya haqları üzrə gözlənilən kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri, oxşar zərər xüsusiyyətlərinə malik (məsələn, coğrafi mövqe, məhsul növü, müştəri növü və reytinqi üzrə) müxtəlif müştəri seqmentlərinin qruplaşmaları üzrə vaxtı keçmiş günlərə əsaslanır. Ehtiyat cədvəli ilk olaraq Cəmiyyətin müşahidə olunmuş tarixi defolt dərəcələrinə əsaslanır. Cəmiyyət, kredit zərəri üzrə tarixi təcrübəni perspektiv məlumatlarla əlaqələndirmək üçün cədvəl tərtib edir.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və gözlənilən kredit zərərləri arasında mövcud olan əlaqənin qiymətləndirilməsi əhəmiyyətli sayılan bir təxmindir. Gözlənilən kredit zərərlərinin məbləği şərait və proqnozlaşdırılan iqtisadi şərtlər üzrə dəyişikliklərə qarşı həssasdır. Cəmiyyətin kredit zərəri üzrə tarixi təcrübəsi və iqtisadi şərtlər üzrə proqnozu da gələcəkdə müştərinin faktiki defoltunu təmsil etməyə bilər.

Maliyyə öhdəlikləri

Maliyyə öhdəliyinin tanınması, bu öhdəlik üzrə ödənişlər yerinə yetirildikdə, öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni borc verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlərlə başqa maliyyə öhdəliyi ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilildikdə, belə bir mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq qalıq dəyərində olan fərq mənfəət və ya zərərdə tanınır.

Borc vəsaitləri

Borc vəsaitləri ilkin olaraq, borc vəsailəri ilə əlaqəli buraxılmış xərclər çıxılmaqla alınmış mükafatların ədalətli dəyərində tanınır. İlkin tanınmadan sonra faiz gətirən borc vəsaitləri effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə ölçülür. Amortizasiya olunmuş dəyər, buraxılış üçün nəzərdə tutulan xərclər və hesablaşma üzrə hər hansı güzəşt və ya mükafatlar da nəzərə alınmaqla hesablanır. Mənfəət və ya zərərlər, öhdəliklərin tanınması dayandırıldıqda və ya dəyərsizləşdikdə, həmçinin amortizasiya prosesi vasitəsilə gəlir hesabatında tanınır.

16 saylı MHBS "İcarələr"

16 saylı MHBS "İcarələr" 17 saylı BUMS "İcarələr", 4 saylı BMHŞK "Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun Müəyyən Edilməsi" Şərhi, Standartların Şərhi Komitəsinin (SŞK) 15 saylı "Əməliyyat İcarələri-Həvəsləndirmələr" Standartı və SŞK "İcarənin Hüquqi Forması da daxil olmaqla Əməliyyatın Mahiyyətinin Qiymətləndirilməsi" 27 saylı Standartını əvəz edir.

Cəmiyyət, ilkin tətbiq etmə tarixi 1 yanvar 2019-cu il tarixi olan 16 saylı MHBS-nin mövcud əməliyyat icarələri üzrə istifadə hüququ verən aktivin ölçülməsinə ilkin birbaşa xərcləri daxil etməməyi qərara almışdır. Bu tarixdə Cəmiyyət həmçinin istifadə hüququ verən aktivləri keçid tarixində mövcud olan əvvəlcədən ödənilmiş və ya yığılmış icarə ödənişlərinə uyğunlaşdırılmış icarə öhdəliyinə bərabər məbləğdə ölçmək üçün seçmişdir. Əvvəlki dövrlər yenidən təqdim edilməmişdir.

İlkin tətbiq olunduğu tarixdə bağlanmış müqavilələr üzrə Cəmiyyət, 17 saylı BMUS və 4 saylı BMHŞK-dən icarə anlayışını tətbiq etməyi seçmişdir və 16 saylı MHBS-ni əvvəllər 17 saylı BMUS və 4 saylı BMHŞK-yə əsasən icarə kimi müəyyən edilməmiş tənzimləmələrə tətbiq etməmişdir.

İlkin tətbiqetmə tarixində istifadə hüququ verən aktivlər üzrə dəyərsizləşməni nəzərdən keçirmək əvəzinə, Cəmiyyət icarələrin 16 saylı MHBS-nin ilkin tətbiqetmə tarixindən dərhal əvvəl çətin olub-olmaması ilə bağlı tarixi qiymətləndirməsinə etibar etmişdir.

Keçid dövründə, əvvəlcədən icarə müddəti 12 aydan az olan əməliyyat icarələri kimi nəzərə alınan icarələr və aşağı dəyərli aktivlərin icarəsi üçün Cəmiyyət istifadə hüququ verən aktivləri tanımamaq, lakin icarə xərclərini qalan icarə müddəti ərzində düz xətt əsasında hesablamaq üçün əlavə imtiyazlar tətbiq etmişdir.

Maliyyə öhdəliklərində təsnif olunmuş əvvəlki icarə öhdəlikləri üçün, aktivin və icarə öhdəliyinin istifadə hüququ ilkin tətbiqetmə tarixində, 17 saylı BMUS-a əsasən, ilkin tətbiqetmədən dərhal sonrakı məbləğlər ilə ölçülür.

16 saylı MHBS-ə keçid zamanı 16 saylı MHBS-a uyğun olaraq tanınan icarə öhdəliklərinə tətbiq olunan orta çəkili borc dərəcəsi 15% təşkil etmişdir.

Cəmiyyət icarələrin müddətini uzatma və ləğv etmə variantlarını nəzərdən keçirərkən, lizinq müddətinin müəyyən edilməsi üzrə retrospektiv şəkildə faydalanmışdır.

Cəmiyyətin rəhbərliyi keçmiş təcrübəsinə əsaslanaraq icarə şərtlərinin müəyyənləşdirilməsində müəyyən mülahizələrdən istifadə etmişdir.

MZVƏD-də ölçülən müştəriərə veriləcək məbləğlər

Cəmiyyət ilkin tanıma zamanı MZVƏD-də ölçülən müştərilərə veriləcək məbləğləri təyin edir. Bu öhdəliklər üzrə gəlirlər və zərərlər, DMG-də qeyd olunan və sonradan mənfəət və ya zərərə yenidən təsnifləşdirilməyən həmin öhdəliyin (bazar riskinin artırılmasına təkan verən bazar şərtləri üzrə dəyişikliklərə aid olmayan məbləğ kimi müəyyən edilir) kredit riskinə edilən dəyişikliklərə aid olan ədalətli dəyər üzrə dəyişiklik məbləğindən başqa, mənfəət və ya zərərdə təqdim edilir. Belə təqdimat, mühasibat uyumsuzluğunun yaranması və ya genişlənməsinə səbəb olduğu hallarda, öhdəliyin kredit riskinə edilən dəyişikliklərə aid olan mənfəət və zərərlər də mənfəət və ya zərər hesablarında təqdim olunur.

Əmlak, tikili və avadanlıqlar

Əmlak, tikili və avadanlıqlar yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz əmlak, tikili və avadanlıqlarını dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa belə aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Cəmiyyət aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

Əmlak və avadanlıqların satışından əldə edilən gəlirlər və zərərlər onların balans dəyərinə əsasən müəyyən edilir və məcmu gəlirlər haqqında hesabatda əks etdirilir.

Təmir və mühafizə xərcləri baş verdikdə mənfəət və ya zərər haqqında hesabat və digər məcmu gəlir hesab edilir.

Köhnəlmə, əmlak, tikili və avadanlıqların qalıq dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla hesablanmış dərəcələrdən istifadə etməklə tətbiq edilir. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı təxmini faydalı xidmət müddəti tətbiq edilir:

İcarə mülkiyyətinin təkmilləşdirilməsi (müqavilə üzrə)	40%
Mebel və qurğular	25%
Kompüter avadanlıqları	25%
Aktivlərdən istifadə hüququ	Əsas icarə müddəti ərzində

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak, tikili və avadanlıqların tanınmasına xitam verilir. Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

Qeyri-maddi aktivlər

Cəmiyyətin bütün qeyri-maddi aktivlərinin qeyri-müəyyən faydalı iqtisadi ömürləri mövcuddur və buraya əsasən broker fəaliyyəti üçün əldə olunmuş lisenziyalar və qiymətli kağızlar üzrə ticarət ilə bağlı digər fəaliyyətlər daxildir.

Ayrıca satın alınmış və müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla maliyyə vəziyyəti hesabatında tarixi dəyəri ilə tanınır. Amortizasiya qeyri-maddi aktivlərin təxmin edilən faydalı ömrü ərzində düz xətt metodu ilə hesablanır. Faydalı ömür təxminləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir. Ayrıca satın alınmış və qeyri-müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər isə maya dəyərindən dəyərsizləşmə zərərlərinin məbləği çıxıldıqdan sonra alınan məbləğdə tanınır.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz əmlak, avadanlıq və qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa, belə aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Cəmiyyət aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) üzrə əldə edilməsi mümkün olan məbləğ aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyərindən azdırsa, onun qalıq dəyəri qaytarılması mümkün olan məbləğə qədər azaldılır. Dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır. Aktiv, yenidən qiymətləndirmə metoduna görə uçota alındıqda qalıq dəyərinin yüksəlməsindən yaranan fərq yenidən qiymətləndirmə nəticəsində dəyərin artması kimi tanınır.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyəri yenidən təyin edilmiş məbləğə qədər artırılır amma yeni təyin edilmiş qalıq dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə itkilərinin tanınmasından öncə mövcud olan qalıq dəyərindən daha çox ola bilməz.

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilir. Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

Vergi qanunvericiliyi

Vergi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Məcmu gəlir hesabatındakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Cəmiyyətin cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və

- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edilsin və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olsun.

Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların fəaliyyəti nəticəsində digər vergilər də yaranır. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi tanınır və məcmu gəlir hesabatına daxil edilir.

Təqaüd və digər mükafatlar üzrə öhdəliklər

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, Cəmiyyət işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları dövlət sosial müdafiə fonduna köçürür. Bu cür ayırmaları hesablayarkən təqaüd sisteminin göstərişlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutulan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər dövlət sosial müdafiə fondu tərəfindən yerinə yetirilir.

Cəmiyyət Azərbaycan Respublikasının dövlət sosial müdafiə fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

Əmək haqları və müvafiq ayırmalar

Əməkhaqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

Şərti aktivlər və öhdəliklər

Şərti öhdəliklər maliyyə vəziyyəti hesabatında tanınmır amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir. Şərti aktivlər maliyyə vəziyyəti hesabatında tanınmır amma belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

Fidusiar fəaliyyətlər

Bütün risklər və mükafatalar tərəflər arasında imzalanmış müqavilə çərçivəsində müştəriyə aid olduğu üçün müştəri adından qoyulmuş investisiyalar Cəmiyyətin aktivlərinin bir hissəsi olaraq uçota alınmır.

Nizamnamə kapitalı

Adi səhmlər kapital bölümündə təsnifləşdirilir. Adi səhmlərin yerləşdirilməsi ilə əlaqədar olan birbaşa əlavə xərclər bütün vergi təsirləri istisna olmaqla kapitalın azaldılması kimi uçota alınır. Adi səhmər üzrə ödənilən dividendlər kapital bölümündə elan olunduğu dövrdə azalma kimi təqdim edilir.

Hesabat tarixindən sonra elan edilmiş dividendlər 10 saylı Beynəlxalq Mühasibat Uçotu Standartına "Hesabat tarixindən sonra baş vermiş hadisələr" ("BMUS 10") standartına müvafiq olaraq maliyyə hesabatlarında açıqlanır.

Xarici valyuta əməliyyatları

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, hesabat tarixində mövcud olan ARMB-nın valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir. Bu çevrilmələr zamanı yaranan gəlir və xərclər mənfəət və zərər hesablarında xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlirlər/(zərərlər) sətrində göstərilir.

Xarici valyuta məzənnələri

Maliyyə hesabatlarının hazırlanması zamanı Cəmiyyət tərəfindən istifadə edilən hesabat tarixinə valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

	31 dekabr 2019-cu il	**31 dekabr 2018-ci il**
ABŞ dolları/AZN	1.7000	1.7000
Avro/AZN	1.9035	1.9468

4. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyət növbəti maliyyə dövrü ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin qalıq dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb ola biləcək təxminlərə aşağıdakılar daxildir:

Fidusiar fəaliyyətlər

Bütün risklər və mükafatalar tərəflər arasında imzalanmış müqavilə çərçivəsində müştəriyə aid olduğu üçün müştəri adından qoyulmuş investisiyalar Cəmiyyətin aktivlərinin bir hissəsi olaraq uçota alınmır.

Hesabat dövründə Cəmiyyət müştərilərdən pul vəsaitləri əldə etmişdir və müştəriləri adından borc qiymətli kağızları satın almışdır. Həmin pul vəsaitləri MUBS 1 "Maliyyə Hesabatlarının Təqdimatı" standartına müvafiq olaraq aktivlərin tanınma meyarlarına (fayda və nəzarət) uyğun gəlmədiyi üçün Rəhbərlik həmin vəsaitləri maliyyə vəziyyəti haqqında hesabatda pul vəsaitləri və onların ekvivalentləri olaraq tanımamışdır.

Müştərilərdən əldə olunan pul vəsaitlərinin maliyyə hesabatlarında pul vəsaitləri və onların ekvivalentləri olaraq tanınmamasının əsas səbəbləri aşağıdakı fərziyyələr və mülahizələr olmuşdur:

- Hesabat dövründə Cəmiyyətin müştərilərdən əldə etdiyi pul vəsaitlərini istifadə etmək hüququ olmamışdır;

- Hesabat dövründə Cəmiyyət müştərilərdən əldə etdiyi pul vəsaitlərindən fayda əldə etməmişdir və həmin vəsaitləri əməliyyatları zamanı və ya investisiya məqsədləri üçün istifadə etməmişdir;
- Cəmiyyət bank hesabında saxladığı pul vəsaitləri üçün müştərilərinə əvəz ödəməyə məcbur deyil və əlavə olaraq Cəmiyyətin iflası və müflisləşməsi halında müştərilərdən alınan pul vəsaitləri kreditorların ümumi iddialarını maliyyələşdirmək üçün nəzərdə tutulmamışdır; və
- Cəmiyyət Maliyyə Bazarlarına Nəzarət Palatasının (tənzimləyici orqan) qaydalarına müvafiq olaraq maliyyə hesabatlarında müştərilərdən əldə etdiyi pul vəsaitləri üzrə valyuta mübadiləsindən yaranmış gəlir və ya zərərləri hesablamamalı və tanımamalıdır.

Rəhbərlik müştərilərinin pul vəsaitləri üzrə müxtəlif müqavilə əsasları və müxtəlif uçot qaydalarının aparıldığını müəyyən edərsə, maliyyə hesabatları çərçivəsində belə qalıqların təqdim edilməsi və açıqlanması müxtəlif ola bilər.

EOKZ ehtiyatının ölçülməsi

EOKZ-un ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. EOKZ ölçülməsi üzrə metodologiya 28 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyat üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), Defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ"), və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makro-iqtisadi ssenarilər modelləri. Cəmiyyət müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arındakı fərdləqin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ ölçülməsi üzrə ətraflı məlumatlar 28 saylı Qeyddə açıqlanır.

Biznes modelinin qiymətləndirilməsi

Biznes modeli maliyyə aktivinin təsnifləşdirilməsini təyin edən amildir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətləri üzrə birləşdirmə və portfelə aid etmə səviyyəsini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Cəmiyyətin rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kreditin pisləşməsi ilə əlaqədar potensial itkilərin minimal həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları "toplamaq üçün salanılma" biznes modelinin parametrlərinə uyğun gəlir. Alətin kredit riskinin idarə olunması ilə bağlı olmayan, müddəti bitməmiş həyata keçirilən digər satışlar da, fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər olaraq əhəmiyyət kəsb etmədikdə "toplamaq üçün saxlanılma" biznes modelinin çərçivəsində dəyərləndirilir. Cəmiyyətin rəhbərliyi satış əməliyyatlarının əhəmiyyətlilik səviyyəsini bu satışların dəyərinin biznes modeli üzrə qiymətləndirilən portfelin dəyərinə olan nisbəti şəklində həmin portfelin orta müddəti üzrə təhlil edir. Əlavə olaraq, yalnız stressli vəziyyətlərdə və ya Cəmiyyətin nəzarətindən kənar olan ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən satış əməliyyatları biznes modelinin məqsədləri üçün təsadüfi sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

"Toplamaq üçün saxlanılma və satış" biznes modeli dedikdə, aktivlərin əsasən nağd vəsaitlərin toplanılması üçün saxlanılması ehtiva edilir, yalnız bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə olunması, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən maliyyə öhdəliklərinin müddətlərinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da model çərçivəsində nəzərə alınır.

Yerdə qalan aktivlər kateqoriyası elə maliyyə aktivləri portfellərindən ibarətdir ki, nağd vəsaitlərin reallaşdırılmasının əsas təyinatı satış vasitəsilə, məsələn ticarət məqsədilə satışın elementlərinin açıq şəkildə nəzərə çarpan olduğu hallar üçün nəzərdə tutulmuşdur.

Nağd vəsaitlər axının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının dəyərləndirilməsi ("YƏMFÖ")

Nağd vəsaitlər axının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının təyin edilməsi mülahizələrdən istifadəni tələb edir. Pulun zaman dəyəri elementi müəyyən hallarda məsələn müqavilə üzrə faiz dərəcəsi dövri olaraq dəyişdirilir amma bu dəyişikliklərin tezliyi borc aləti üzrə nəzərdə tutulan əsas faiz dərəcəsi göstəricisinə uyğun olmadıqda dəyişdirilə bilər. Buna misal olaraq faizləri üç aylıq banklararası faiz dərəcəsinə uyğun olaraq ödənilən, yalnız faiz dərəcəsinin həy ay düzəldilən maliyyə alətlərini göstərmək olar. Pulun zaman dəyərinin dəyişdirilməsinin təsiri müvafiq alət üzrə nağd pul vəsaitləri axınının YƏMFÖ xarakteli bənzər maliyyə aləti üzrə nağd pul vəsaitləri axını ilə müqayisə edilərək dəyərləndirilir. Dəyərləndirmə məntiqli görsənən bütün mümkün ssenarilər üçün, o cümlədən maliyyə bazarlarında baş verməsi mümkün olan maliyyə stresi vəziyyətləri üçün aparılmışdır. Nağd pul vəsaitləri ilə bağlı yaranan ssenarinin bənzər alətlər üzrə mövcud olan göstəricilərdən fərqli olduğu hallarda, dəyərləndirilən alət üzrə yaranan nağd pul vəsaitləri YƏMFÖ olaraq nəzərə alınmır və bu alət MVZƏD maliyyə aləti olaraq təsnifləşdirilir.

Cəmiyyətin rəhbərliyi müqavilə üzrə nəzərdə tutulan nağd pul vəsaitlərinin axınını dəyişdirmək qabiliyyətinə malik olan müqavilə şərtlərini təyin etmiş və nəzərə almışdır. Kredit sazişinin müddəalarına görə vaxtından öncə ödənişlərin mümkün olması və bu ödənişlərin əsas məbləğ və hesablanmış faizlərlə, eləcə də öncədən ödənişlə bağlı müştəridən alınmalı olan haqq və komissiyalarla bağlı olması halında YƏMFÖ üzrə kriteriyalar yerinə yetirilmiş sayılır. Aktiv üzrə əsas məbləğə ilkin tanınma zamanı mövcud olan ədalətli dəyərlə sonrakı dövrlərdə əsas məbləğ üzrə ödənişlər (yəni effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz ödənişləri nəzərə alınmadan yerdə qalan məbləğ) arasındakı fərq aid edilir. Bu prinsipə istisna olaraq standart həm də müəyyən ilkin ödəmə xüsusiyyətlərinə malik olan və aşağıdakı YƏMFÖ şərtlərinə cavab verən alətlərin də nəzərə alınmasına icazə verir: (i) maliyyə aktivi ilkin olaraq premiya və ya diskontla hazırlanmışdır, (ii) öncədən ödəniş məbləği müqavilə üzrə nəzərdə tutulmuşdur və əsas məbləğ, hesablanmış faizlər və məntiqli sayılan məbləğdə olmaqla müqaviləyə əvvəlcədən xitam verməklə bağlı kompensasiya ilə bağlıdırsa, və (iii) öncədən ödəniş imkanı yaradan müddəanın ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətli sayılmır.

Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu

Cəmiyyət adi fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. MHBS 9-a uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat 7-ci Qeyddə açıqlanır.

Ədalətli dəyər

Cəmiyyətin rəhbərliyi, mənfəət və ya zərər hesabına ədalətli dəyərdə göstərilən maliyyə aktivlərinin (əsas brokerdən alınacaq vəsaitlər və məhdudlaşdırılmış depozitlər) və maliyyə öhdəliklərinin (müştərilərə ödəniləcək məbləğlər) ədalətli dəyərinin müəyyənləşdirilməsində əhəmiyyətli dərəcədə təxminlərdən istifadə edir. Daha ətraflı məlumat üçün 30 saylı Qeydə nəzər salın.

Cari vergilər

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunverciliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, üç təqvim ili üzrə vergi öhdəlikləri ilə əlaqədar olaraq vergi və gömrük orqanlarının nümayəndələri tərəfindən yoxlanıla bilər.

İcarə öhdəliklərinin qiymətləndirilməsi və aktivlərdən istifadə hüququ

16 saylı MHBS-nin tətbiqi aktivlər və icarə öhdəliklərindən istifadə hüququna dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Cəmiyyət yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

5. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2020-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

BMHŞK 23 "Gəlir vergisi ilə bağlı yanaşmalarda qeyri-müəyyənlik", 12 saylı MUBS-a əsasən gəlir vergisi ilə bağlı metodlarda qeyri-müəyyənlik olduqda, vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. Bu, xüsusi olaraq aşağıdakıları nəzərdə tutur:

- vergi ilə bağlı yanaşmaların kollektiv olaraq nəzərə alınması;
- vergi orqanlarının təftişlərinə dair fərziyyələr;
- vergi tutulan mənfəətin (vergi zərərinin), vergi bazalarının, istifadə edilməmiş vergi zərərlərinin, istifadə edilməmiş vergi kreditlərinin və vergi dərəcələrinin müəyyən edilməsi; və
- fakt və vəziyyətlərə dəyişikliklərin təsiri.

Bu şərh, 1 yanvar 2019-cu il tarixindən və ya ondan sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir. Cəmiyyət tərəfindən aparılan təhlillər nəticəsində standartın maliyyə hesabatlarına təsiri olmadığı qənaətinə gəlinmişdir.

2015-2017-ci illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər – Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının ("BMUSŞ") illik təkmilləşdirilməsi layihəsi nəticəsində dörd Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (MHBS) düzəlişləri əks etdirir.

Standart	Düzəlişin mövzusu
MHBS 3 “Biznes Kombinasiyaları” və MHBS 11 “Birgə Razılaşmalar”	MHBS 3-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyanın yenidən qiymətləndirilməsinin zəruri olduğunu aydınlaşdırır. MHBS 11-ə düzəlişlər, müəssisə müştərək əməliyyat olan bir biznes üzərində nəzarət əldə etdikdə, həmin bizneslə bağlı əvvəldən formalaşmış investisiyasının yenidən qiymətləndirilməsinə ehtiyac olmadığını aydınlaşdırır.
BMUS12 “Mənfəət Vergisi”	Düzəlişlər, dividendlərin verilməsi ilə bağlı bütün gəlir vergisi nəticələri (verilməsi ilə bağlı) verginin necə yaranmasından asılı olmayaraq, mənfəət və ya zərərdə tanınmalıdır.
BMUS 23 “Borc üzrə Xərclər”	Düzəlişlər, müvafiq aktivin, nəzərdə tutulduğu istifadəsi yaxud satış üçün hazır olduqdan sonra hər hansı spesifik borc, ödənilməmiş qaldıqda, müəssisə ümumi borclarla bağlı kaptallaşdırma dərəcəsini hesablayan zaman həmin borc qalığı, müəssisənin ümumiyyətlə borc aldığı maliyyə vəsaitlərinin bir hissəsinə çevrilir.

Bütün bu düzəlişlər, 2019-cu ilin 1 yanvar tarixində və ya ondan sonrakı tarixlərdə başlayan dövrlər üzrə qüvvədədir və maliyyə hesabatlarına təsiri aşkar edilməmişdir.

“İşçilərin Mükafatlandırılması Paketləri üzrə Düzəliş, Məhdudlaşdırılma və ya Hesablamalar” üzrə 19 saylı MUBS-a edilən Düzəlişlər – Dəyişikliklər, keçmiş xidmət dəyəri (ya da hesablama üzrə mənfəət və ya zərəri) müəyyən edilmiş təqaüd öhdəliklərinin (aktivin) yenilənmiş ehtimallardan istifadə edərək ölçülməsi və təklif olunan faydaları və paket aktivlərini müvafiq dəyişiklikdən əvvəl və sonra müqayisə etməklə (məhdudlaşdırılma və ya hesablanmalar), lakin aktivin maksimal həddinin təsirini nəzərə almamaqla ölçülür (müəyyən edilmiş təqaüd paketi müsbət saldo olduqda yarana bilər). BMUS 19-a əsasən, paketin düzəlişindən (məhdudlaşdırılma və ya hesablanmalar) yarana biləcək aktivin maksimal həddinin təsirinin dəyişməsi ikinci mərhələdə müəyyənləşdirilir və digər məcmu gəlirdə normal qaydada tanınır.

Mövcud xidmət xərcinin ölçülməsinə aid olan paraqraflar və müəyyən edilmiş xalis təqaüd öhdəlikləri (aktiv) üzrə xalis faizlərə də düzəliş edilmişdir. İndi müəssisədən plana dəyişikliklər edildikdən sonra hesabat dövrünün qalan hissəsi üçün cari xidmət haqqını və dəqiq faizini müəyyən etmək üçün bu yenidən qiymətləndirmədən yenilənmiş ehtimallardan istifadə etmək tələb olunacaq. Xalis faiz dərəcəsi halında düzəlişlər aydınlaşdırır ki, planın dəyişməsindən sonrakı müddət üzrə xalis faiz dərəcəsi BMUS 19.99-da yenidən qiymətləndirilmiş xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri (aktiv) ilə yenidən qiymətləndirilmədə istifadə edilən diskont dərəcəsinin hasili şəklində hesablanır (həmçinin ianələrin təsiri və xalis müəyyənləşdirilmiş təqaüd öhdəlikləri nəzərə alınır (aktiv)).

Düzəlişlər prospektiv şəkildə tətbiq olunur. Onlar yalnız illik dövrün başlanğıcında və ya ondan sonrakı dövrdə BMUS 19-a ilk tətbiq edilmiş paket düzəlişləri, məhdudiyyətləri və hesablamalarına tətbiq olunur.

19 saylı BMUS-a edilən düzəlişlər 1 yanvar 2019-cu il tarixinə və ya ondan sonra başlayan illik dövrlər üçün tətbiq edilməlidir, lakin müəssisənin qərarı ilə, erkən tətbiq oluna bilər. Rəhbərliyin apardığı təhlil nəticəsində maliyyə hesabatlarında dəyişiklik edilməmişdir.

MUBS 28 "Asılı və Birgə Müssisələrə İnvestisiya Qoyuluşları" standartına dəyişikliklər – MUBSŞ, asılı təsərrüfat cəmiyyətlərində uzunmüddətli iştirak payına dair 28 saylı MUBS-ə düzəlişlər hazırlamışdır. Düzəlişə əsasən müəssisə, asılı təsərrüfat cəmiyyətində və ya birgə müəssisədə xalis investisiyanın bir hissəsini təşkil edən, lakin iştirak payı metodunun tətbiq olunmadığı asılı yaxud birgə müəssisədə uzunmüddətli mənfəətə 9 saylı MHBS-i tətbiq etməlidir. Düzəliş 1 yanvar 2019-cu il tarixində və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir və Rəhbərliyin apardığı təhlil nəticəsində maliyyə hesabatlarında dəyişiklik edilməmişdir.

MHBS 9 "Maliyyə Alətləri" standartına dəyişikliklər – MUBSŞ, mənfi təzminat və maliyyə öhdəliklərinin dəyişdirilməsi ilə bağlı ödənilmiş avansların xüsusiyyətləri haqqında 9 saylı MHBS-ə dair dəyişiklikləri dərc etmişdir.

Mənfi Təzminat ilə bağlı Ödənilmiş Avansların Xüsusiyyətləri – mənfi təzminat ödəmələri üzrə belə, amortizasiya olunmuş dəyərdə ölçməyə icazə vermək məqsədilə xitam hüquqlarına dair 9 saylı MHBS-in mövcud tələbini dəyişir. MUBSŞ həmçinin, müəssisənin dəyişiklik və ya dəyişdirmə tarixində mənfəət və ya zərərdə dəyişiklik və ya mübadilə nəticəsində yaranan maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinə hər hansı düzəlişin tanınmasını aydınlaşdırır.

MHBS 16 "İcarələr", MHBS məruzəçisinin icarələri tanıma, ölçmə, təqdim etmə və açıqlama formasını müəyyən edir. Standart, icarə müddəti 12 ay və ya daha az olarsa, yaxud baza aktivinin dəyəri az olarsa, bütün icarələr üzrə aktiv və öhdəlikləri tanımaq üçün icarəçidən tələb olunan vahid mühasibat uçotu modelini təmin edir. İcarəyə verən MHBS 16-nın yanaşması ilə icarələri əməliyyat və ya maliyyə icarələri olaraq təsnif etməyə davam edir və icarəyə verənin mühasibat uçotu bu sahədə daha əvvəlki standart sayılan MUBS 17-yə nisbətən əsaslı dəyişikliklərə məruz qalmır.

Cəmiyyət, ilkin tətbiq etmə tarixi 1 yanvar 2019-cu il tarixi olan 16 saylı MHBS-nin mövcud əməliyyat icarələri üzrə istifadə hüququ verən aktivin ölçülməsinə ilkin birbaşa xərcləri daxil etməməyi qərara almışdır. Bu tarixdə Cəmiyyət həmçinin istifadə hüququ verən aktivləri keçid tarixində mövcud olan əvvəlcədən ödənilmiş və ya yığılmış icarə ödənişlərinə uyğunlaşdırılmış icarə öhdəliyinə bərabər məbləğdə ölçmək üçün seçmişdir.

İcarəçinin uçotunun tam əksi olaraq, 16 saylı MHBS, İcarədarın uçot tələbləri üzrə BMUS 17-də olan standartları əsasən dəyişməz olaraq saxlamışdır. Cəmiyyət İcarəçi olaraq, yeni standartın tətbiqi üzrə təsirə məruz qala bilər.

16 saylı MHBS, Cəmiyyətin əvvəllər balansdan kənar uçotu aparılan 17 saylı MUBS-a əsasən əməliyyat lizinqi kimi təsnifləşdirilən lizinqlərlə bağlı uçot tələblərini dəyişdirə bilər. 16 saylı MHBS-nın ilkin tətbiqi zamanı, bütün lizinqlər üçün (aşağıda göstərildiyi istisna olmaqla), Cəmiyyət aşağıdakıları yerinə yetirəcəkdir:

a) İlkin olaraq gələcək icarə ödənişlərinin cari dəyərində ölçülən, istifadə hüququ verən aktivləri və icarə öhdəliklərini maliyyə vəziyyəti haqqında hesabatda tanımaq;

b) İstifadə hüququ verən aktivlərin və icarə öhdəlikləri üzrə faiz xərclərinin mənfəət və zərər hesabatında amortizasiyasını tanımaq;

c) Pul vəsaitlərinin hərəkəti hesabatında ödənmiş pul vəsaitlərinin ümumi məbləğini əsas hissəyə (maliyyələşdirmə fəaliyyəti bölümündə təqdim olunduqda) və faizə (əməliyyat fəaliyyəti bölümündə təqdim edilən) ayırmaq.

Güzəştli icarə ödənişləri (məsələn, icarə haqqı olmayan müddət) istifadə hüququ verən aktivlərin və icarə öhdəliklərinin ölçülməsinin bir hissəsi kimi qəbul edilməlidir. 17 saylı BMUS-da isə müvafiq olaraq, güzəştli icarə öhdəliklərinin ayrıca tanınması və düz xətt üsulu ilə icarə xərclərinin azalması vasitəsilə amortizasiyası tələb olunurdu.

16 saylı MHBS-yə əsasən tanınmış aktivlərdən istifadə hüququ, "Aktivlərin Dəyərsizləşməsi" adlı 36 saylı BMUS-a uyğun olaraq dəyərsizləşmə üzrə təhlil edilməlidir. Bu əhəmiyyətli icarə müqavilələri üzrə ehtiyat tanınması üçün əvvəlki tələbi əvəz edəcək.

Qısa-müddətli icarələr (12 aylıq və ya daha az) və aşağı dəyərli aktivlər (məsələn fərdi kompüterlər və ofis mebeli) üçün Cəmiyyət 16 saylı MHBS-nin icazə verdiyi formada icarə xərcini düz-xətt metodu əsasında tanımağı seçmişdir.

Cəmiyyət bu standartın tətbiqinin təsirlərini qiymətləndirmiş və maliyyə hesabatlarında dəyişikliklər etmişdir.

31 dekabr 2018-ci il tarixinə olan əməliyyat icarəsi öhdəliklərinin 1 yanvar 2019-cu il tarixində tanınmış icarə öhdəlikləri ilə uzlaşdırılması aşağıda göstərilmişdir:

	31 dekabr 2019-cu il
31 dekabr 2018-ci il tarixində açılmış cəmi icarə öhdəlikləri	29,665
Artan borc dərəcəsindən istifadə etməklə diskontlaşdırılmanın təsiri	(2,757)
1 yanvar 2019-cu il tarixinə 16 saylı MHBS-yə əsasən tanınmış cəmi icarə öhdəlikləri	**26,908**

16 saylı MHBS-nin qəbul edilməsinin 1 yanvar 2019-cu il tarixinə olan maliyyə hesabatlarına təsiri aşağıdakı kimidir:

	31 dekabr 2018-ci il tarixinə olan qalıq dəyəri	**Yenidən ölçmə**	**1 yanvar 2019-cu il tarixinə 16 saylı MHBS üzrə qalıq dəyəri**
Aktivlərdən istifadə hüququ	-	26,908	26,908
İcarə öhdəliyi	-	(26,908)	(26,908)

6. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş lakin qüvvəyə minməmişdir.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ), Banklararası təklif olunan faiz həddi ("İBOR") üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, "Baza Faiz Dərəcəsi İslahatı"-nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri") dərc etmişdir. Baza faiz dərəcəsi islahatı aşağıdakı dəyişiklikləri nəzərdə tutur:

- islahat nəticəsində müəssisələrin, hedc olunmuş pul axınlarının və hedcinq aləti üzrə pul axınlarının əsaslandığı baza faiz dərəcəsinin dəyişilməyəcəyini ehtimal edərək, tətbiq ediləcək hedcinq uçotu üzrə bəzi tələblərin yenidən müəyyənləşdirilməsi;
- baza faiz dərəcəsi islahatının birbaşa təsir etdiyi bütün hedcinq münasibətləri üçün məcburidir;

- baza faiz dərəcəsi islahatı nəticəsində yaranacaq digər nəticələrin həlli üçün nəzərdə tutulmamışdır (əgər hedcinq münasibətləri düzəlişlərdə göstərilməmiş səbəblər nəticəsində, hedcinq uçotu tələblərinə cavab vermirsə, hedcinq uçotunun dayandırılması tələb olunur); və
- düzəlişlərin müəssisələrin hedcinq münasibətlərinə hansı dərəcədə təsir göstərməsi barədə xüsusi açıqlamaları tələb etmək.

Düzəlişlər 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

MHBS 3 Müəssisələrin Birləşməsi. “Müəssisə” tərifinə edilən Düzəliş – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin biznes və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki alıcı qudvili yalnız biznes alarkən tanıyır.

Dəyişikliklərə əsasən, “biznes”-in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkibidir.

Şirkətlər, biznesin yenilənmiş tərifini 2020-ci il yanvarın 1-də və ya ondan sonra baş verən satınalmalara tətbiq etməlidirlər. Daha əvvəl tətbiq edilməsinə icazə verilir.

“Əhəmiyyətlilik” anlayışının yeni tərifi – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir.

Yeni dəyişikliklər 1 saylı BMUS “Maliyyə Hesabatlarının Təqdimatı” və 8 saylı BMUS “Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar”-a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-nin digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsi maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixindən qüvvədədir. Erkən tətbiqinə icazə verilir.

15 may 2020-ci ildə BMUSŞ icarəçilərə “COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri (16 saylı MHBS-ə edilmiş Düzəliş)” icarəçilərə COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-ə edilmiş düzəliş) 16 saylı MHBS-ə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərə COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVID-19 ilə əlaqəli icarə güzəştlərini hesaba vermələrini tələb etmək;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarını tələb etməlidir; və

- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərini retrospektiv şəkildə tətbiq etmələrini tələb etsələr də, əvvəlki dövr rəqəmlərini yenidən tələb etmələrini tələb etmirlər.

Düzəlişlər 1 iyun 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir. Düzəlişlərin 28 may 2020-ci il tarixinədək dərc edilmək üçün təsdiq olunmamış maliyyə hesabatları da daxil olmaqla, erkən tətbiqinə icazə verilir. Düzəliş eyni zamanda aralıq hesabatlarında da tətbiq edilə bilər.

MHBS 17 “Sığorta müqavilələri” 2017-ci ilin may ayında verilmiş və 4 saylı MHBS “Sığorta müqavilələri”-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə, buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə MHBS 17 “Sığorta müqavilələri”-ni tətbiq etməlidir.

MHBS 17, 2023-cü il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. MHBS 15 “Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir” və 9 saylı MHBS “Maliyyə Alətləri” standartları ilə birlikdə icazə verilir.

Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər – 2020-ci il yanvar ayında BMUSŞ “Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı (1 saylı BMUS üzrə Düzəlişlər)” dərc etmişdir. Düzəlişlər, öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv, öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir.

Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

10 saylı MHBS “Konsolidə Edilmiş Maliyyə Hesabatları” və 28 saylı BMUS (düzəlişlər): “İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi” – 10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır.

Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir; lakin, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

7. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ BAĞLI ƏMƏLİYYATLAR VƏ QALIQLAR

Əlaqəli tərəflər BMUS 24 "Əlaqəli Tərəflərlə bağlı Qeydlər" standartında müəyyən edilir. Tərəflər, ümumiyyətlə, bir tərəf digər tərəfə nəzarət etdikdə, ümumi nəzarəti altında olduqda və ya maliyyə və əməliyyat qərarlarının qəbulunda digər tərəfə əhəmiyyətli təsir göstərdikdə və ya birgə nəzarət olduqda əlaqəli tərəf hesab olunur. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir.

Cəmiyyətə son nəzarət edən tərəf 1 saylı Qeyddə əks etdirilmişdir.

31 dekabr 2019-cu və 2018-ci il tarixlərində başa çatmış illər üzrə məcmu gəlir haqqında hesabata daxil edilmiş məbləğlər əlaqəli tərəflərlə bağlı əməliyyatlarda tanınmış aşağıdakı məbləğlərdir:

	31 dekabr 2019-cu il		**31 dekabr 2018-ci il**	
	Əlaqəli tərəflərlə olan məbləğlər	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**	**Əlaqəli tərəflərlə olan məbləğlər**	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**
Əməliyyat gəlirləri				
- *Səhmdarlar və Cəmiyyətin səhmlərinin mühüm hissəsinə sahib olduğu müəssisələr*	227,148	**1,043,808**	92,753	**788,561**
Ümumi və inzibati xərclər				
- *Səhmdarlar və Cəmiyyətin səhmlərinin mühüm hissəsinə sahib olduğu müəssisələr*	(9,530)	**(202,714)**	(25,195)	**(109,634)**
Faiz xərcləri				
- *Səhmdarlar və Cəmiyyətin səhmlərinin mühüm hissəsinə sahib olduğu müəssisələr*	-	**(22,245)**	(2,644)	**(2,842)**
Faiz gəlirləri				
- *Səhmdarlar və Cəmiyyətin səhmlərinin mühüm hissəsinə sahib olduğu müəssisələr*	-	**28,297**	-	**27,767**
Xarici valyuta əməliyyatları üzrə xalis gəlir				
- *Səhmdarlar və Cəmiyyətin səhmlərinin mühüm hissəsinə sahib olduğu müəssisələr*	-	**-**	14,695	**14,695**

Direktorların və əsas rəhbərliyin üzvlərinin mükafatları aşağıdakı kimi olmuşdur:

	31 dekabr 2019-cu il		31 dekabr 2018-ci il	
	Əlaqəli tərəflərlə olan məbləğlər	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**	**Əlaqəli tərəflərlə olan məbləğlər**	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**
Rəhbərliyin əsas işçilərinin kompensasiyası:				
- *qısamüddətli işçi müavinətləri*	216,823	367,702	204,537	334,268
Cəmi	**216,823**	**367,702**	**204,537**	**334,268**

31 dekabr 2019-cu və 2018-ci il tarixlərinə əlaqəli trəflər arasındakı təfərrüatları aşağıdakı cədvəldə açıqlanmışdır:

	31 dekabr 2019-cu il		31 dekabr 2018-ci il	
	Əlaqəli tərəflərlə olan məbləğlər	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**	**Əlaqəli tərəflərlə olan məbləğlər**	**Mənfəət və ya zərər hesabatında bu bənd üzrə cəmi məbləğ**
Pul vəsaitləri və onların ekvivalentləri				
- *Səhmdarlar və Cəmiyyətin səhmlərinin mühüm hissəsinə sahib olduğu müəssisələr*	638,872	**683,544**	748,804	**748,804**
İstifadəsi məhdudlaşdırılmış əmanətlər				
- *Səhmdarlar və Cəmiyyətin səhmlərinin mühüm hissəsinə sahib olduğu müəssisələr*	12,108	**1,006,218**	673,482	**673,482**
Alınacaq komissiya haqları				
- *Səhmdarlar və Cəmiyyətin səhmlərinin mühüm hissəsinə sahib olduğu müəssisələr*	25,000	**35,075**	5,400	**60,603**
İnvestisiya qiymətli kağızları				
kapital qiymətli kağızları	60,000	**60,000**	60,000	**60,000**

8. ƏMƏLİYYAT GƏLİRLƏRİ

Əməliyyat gəlirləri aşağıdakılardan ibarətdir:

	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə
Spred əməliyyatlarının həcmi üzrə komissiya gəlirləri	801,160	594,473
Qiymətli kağızlar, istiqrazlar və səhmlərlə bağlı brokerlik haqları	152,913	234,006
İnvestisiya üzrə məsləhət xidmətləri	90,931	-
Şəxsi vəsaitlər hesabına ticarət fəaliyyətindən əldə olunan gəlirlər	32,081	-
Digər gəlirlər	43,922	8,699
Çıxılsın: Spred əməliyyatlarının həcmi üzrə müştərilərə ödənilmiş mükafatlar	(77,199)	(48,617)
Cəmi əməliyyat gəlirləri	**1,043,808**	**788,561**

9. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR VƏ HEYƏT XƏRCLƏRİ

Ümumi və inzibati xərclər və heyət xərcləri aşağıdakılardan ibarətdir:

	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə
Əmək haqları və məvaciblər	(367,702)	(334,268)
Peşəkar və hüquqi xidmətlər	(82,851)	(9,840)
Köhnəlmə və amortizasiya	(38,521)	(11,256)
Onlayn əməliyyat platforması üzrə icarə xərcləri	(18,000)	(18,000)
Qonaqlama xərcləri	(16,609)	(12,754)
Maliyyə Bazarlarına Nəzarət Palatasına ödənişlər	(12,669)	(11,550)
Bank xidmətləri üzrə haqlar	(9,530)	(14,382)
Təmizlik xidmətləri xərcləri	(6,386)	-
Təlim xərcləri	(5,873)	(4,720)
Üzvlük haqları	(4,270)	(4,220)
Ofis ləvazimatları	(3,041)	(2,734)
Rabitə xərcləri	(2,680)	(3,127)
İcarə xərcləri	-	(16,024)
Digər	(2,284)	(1,027)
Cəmi ümumi və inzibati xərclər və heyət xərcləri	**(570,416)**	**(443,902)**

10. FAİZ GƏLİRLƏRİ

Effektiv faiz metodu ilə hesablanmış faiz gəlirləri aşağıdakılardan ibarətdir:

	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə
İnvestisiya qiymətli kağızları üzrə faiz gəlirləri	28,297	27,767
Cəmi effektiv faiz metodu ilə hesablanmış faiz gəlirləri	**28,297**	**27,767**

11. FAİZ XƏRCLƏRİ

	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə
Borc alınmış vəsaitlər üzrə faiz xərcləri	(19,701)	(198)
İcarəöhdəlikləri üzrə faiz xərcləri	(2,544)	-
Fiziki şəxslərin istifadə edilməmiş vəsaitləri üzrə faiz xərcləri	-	(2,644)
Cəmi faiz xərcləri	**(22,245)**	**(2,842)**

12. VERGİ HESABLAMALARI

31 dekabr 2019-cu və 2018-ci il tarixlərində başa çatmış maliyyə illəri üzrə effektiv olan 20% vergi dərəcəsindən istifadə etməklə bütün ehtimal edilən vergi öhdəlikləri üzrə hesablamalar həyata keçirilmişdir.

Cəmiyyət cari mənfəət vergisi öhdəliklərini və vergi bazalarını Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq aktiv və öhdəliklərdə dəyərləndirir və əks etdirir və bu hesablamalar MHBS-dən fərqlənir.

Aşağıdakı göstərilmiş vergi dərəcəsi, vergi qanunvericiliyi əsasında vergiyə cəlb edilən mənfəət vergisi üzrə Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslər tərəfindən ödənilməli olan 20% -ə bərabər vergi dərəcəsi təşkil edir.

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Aşağıdakılarla bağlı təxirə salınmış mənfəət vergisi aktivi/(öhdəliyi):		
Digər öhdəliklər	4,173	2,279
İcarə öhdəliklər	1,702	-
Qeyri-maddi aktivlər	82	-
Alınacaq komissiyalar	-	2,134
İnvestisiya qiymətli kağızları	-	1,005
İnvestisiya qiymətli kağızları	(3,166)	(6,230)
Aktivlərdən istifadə hüququ	(1,582)	-
Xalis təxirə salınmış mənfəət vergisi aktivi/(öhdəliyi)	**1,209**	**(812)**

31 dekabr 2019-cu il və 2018-ci il tarixlərində başa çatmış illər üçün effektiv vergi dərəcəsi üzrə təhlil aşağıdakı kimidir:

	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə
Mənfəət vergisindən əvvəlki mənfəət	479,444	384,279
Qüvvədə olan vergi dərəcəsi ilə nəzəri vergi (20%)	(95,889)	(76,856)
Daimi fərqlərin vergi təsiri	(69)	(7,352)
Əvvəlki illər üzrə hesablanmış əlavə mənfəət vergisi	9,803	-
Mənfəət vergisi xərci	**(86,155)**	**(84,208)**
Cari ilin mənfəət vergisi xərci	(90,478)	(79,118)
Müxtəlif dərəcələrlə vergiyə cəlb edilən faiz gəlirləri	2,302	2,274
Təxirə salınmış mənfəət vergisi üzrə (gəlir)/xərc	2,021	(7,364)
Mənfəət vergisi xərci	**(86,155)**	**(84,208)**

	2019-cu il	2018-ci il
İlin əvvəlində – təxirə salınmış vergi öhdəliyi/(aktivi)	(812)	6,552
Təxirə salınmış mənfəət vergisi qalıqlarında dəyişliklər	2,021	(7,364)
İlin sonunda – təxirə salınmış vergi (aktivi)/öhdəliyi	**1,209**	**(812)**

13. ƏMLAK VƏ AVADANLIQLAR

Əmlak və avadanlıqlar aşağıdakılardan ibarətdir:

	Mebel və qurğular	Kompüter avadanlıqları	İcarə mülkiyyətinin təkmilləşdi-rilməsi	Cəmi əmlak və avadanlıqlar
İlkin dəyəri				
1 yanvar 2018-ci il	**8,545**	**2,641**	**-**	**11,186**
Əlavələr	9,460	4,650	29,511	43,621
31 dekabr 2018-ci il	**18,005**	**7,291**	**29,511**	**54,807**
Əlavələr	1,645	-	-	1,645
31 dekabr 2019-cu il	**19,650**	**7,291**	**29,511**	**56,452**
Yığılmış amortizasiya				
1 yanvar 2018-ci il	**(3,423)**	**(726)**	**-**	**(4,149)**
Silinmə üzrə ləğv edilmiş	(2,701)	(1,122)	(5,918)	(9,741)
31 dekabr 2018-ci il	**(6,124)**	**(1,848)**	**(5,918)**	**(13,890)**
İl üzrə tutulmalar	(3,968)	(1,830)	(11,804)	(17,602)
31 dekabr 2019-cu il	**(10,092)**	**(3,678)**	**(17,722)**	**(31,492)**
Xalis qalıq dəyəri				
31 dekabr 2019-cu il	**9,558**	**3,613**	**11,789**	**24,960**
31 dekabr 2018-ci il	**11,881**	**5,443**	**23,593**	**40,917**

14. QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlər aşağıdakılardan ibarətdir:

	Lisenziyalar və proqram təminatı
İlkin dəyəri	
1 yanvar 2018-ci il	**13,850**
Əlavələr	16,400
Silinmələr	(11,000)
31 dekabr 2018-ci il	**19,250**
Əlavələr	-
31 dekabr 2019-cu il	**19,250**
Yığılmış amortizasiya	
1 yanvar 2018-ci il	**(11,855)**
İl üzrə tutulmalar	(1,515)
Silinmə üzrə ləğv edilmiş	11,000
31 dekabr 2018-ci il	**(2,370)**
İl üzrə tutulmalar	(1,925)
31 dekabr 2019-cu il	**(4,295)**
Xalis qalıq dəyəri	
31 dekabr 2019-cu il	**14,955**
31 dekabr 2018-ci il	**16,880**

Qeyri-maddi aktivlərə broker fəaliyyəti və qiymətli kağızlar üzrə əməliyyatlar ilə bağlı digər fəaliyyətlər üzrə lisenziyalar daxildir.

15. İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI

İnvestisiya qiymətli kağızları aşağıdakılardan ibarətdir:

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
DMGVƏD ilə borc qiymətli kağızları		
Korporativ istiqrazlar	499,941	-
Cəmi DMGVƏD ilə borc qiymətli kağızları	**499,941**	**-**
Amortizasiya olunmuş dəyər ilə borc qiymətli kağızları		
Korporativ istiqrazlar	-	255,024
Cəmi amortizasiya olunmuş dəyər ilə borc qiymətli kağızları	**-**	**255,024**
DMGVƏD ilə kapital qiymətli kağızları		
Korporativ səhmlər	60,000	60,000
Cəmi DMGVƏD ilə kapital qiymətli kağızları	**60,000**	**60,000**
Cəmi investisiya qiymətli kağızları	**559,941**	**315,024**

29 yanvar və 19 aprel 2018-ci il tarixlərində Cəmiyyət "MET-AK" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən müvafiq olaraq illik 12% və 14% faiz dərəcəsi ilə buraxılmış, 250,000 AZN məbləğində, hər birinin dəyəri 1,000 AZN olan 250 (iki yüz əlli) ədəd təmin edilməmiş istiqraz əldə etmişdir. 2019-cu ilin yanvar və aprel aylarında Cəmiyyət bu qiymətli kağızların hamısını ödəmə tarixində emitentə geri təhvil vermişdir.

24 dekabr 2019-cu ildə Cəmiyyət, hər birinin dəyəri 102,0495 AZN və illik faiz dərəcəsi 8.50% təşkil edən Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılmış və ümumi məbləği 499,941 AZN təşkil edən, 4,899 (dörd min səkkiz yüz doxsan doqquz) ədəd istiqraz əldə etmişdir. Bu istiqrazlar üzrə hesablanmış faizlər yarım illik əsasda alınacaqdır.

Cəmiyyət 5 fevral 2008-ci il tarixindən etibarən "Bakı Fond Birjası" QSC-nin nizamnamə kapitalının 4.76%-nə sahibdir (hər biri 200,000 AZN dəyərində ümumilikdə 60,000 AZN dəyərində 300 səhmdən ibarətdir).

İnvestisiya qiymətli kağızlarının bütün qalıqları 1-ci Mərhələyə aid edilmişdir. Cəmiyyətin investisiya qiymətli kağızlarına dair ehtimal olunan kredit zərərləri təxmini olaraq sıfıra bərabərdir.

31 dekabr 2019 və 2018-ci il başa çatmış illər ərzində mərhələlər arasında köçürmələr olmamışdır.

16. AKTİVLƏRDƏN İSTİFADƏ HÜQUQU

	Ofis tikililəri	Cəmi aktivlərdən istifadə hüququ
İlkin dəyərdə		
1 yanvar 2019-cu il tarixinə	**26,908**	**26,908**
31 dekabr 2019-cu il	**26,908**	**26,908**
Yığılmış amortizasiya		
1 yanvar 2019-cu il	**-**	**-**
Amortizasiya xərcləri	(18,994)	(18,994)
31 dekabr 2019-cu il	**(18,994)**	**(18,994)**
Xalis qalıq dəyəri		
31 dekabr 2019-cu il	**7,914**	**7,914**
1 yanvar 2019-cu il	**26,908**	**26,908**
31 dekabr 2018-ci il	**-**	**-**

17. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Cəmiyyətin pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı qalıqlardan ibarətdir:

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Banklardakı pul qalıqları	682,972	748,804
Kassadakı pul qalıqları	572	-
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**683,544**	**748,804**

31 dekabr 2019-cu və 2018-ci il tarixlərinə banklarda yerləşdirilmiş vəsaitlər üzrə hər hansı bir məhdudiyyət mövcud olmamışdır.

EOKZ hesablamaları məqsədilə, pul vəsaitləri və onların ekvivalentləri 1-ci Mərhələyə daxil edilmişdir. Bu qalıqlar üzrə EOKZ əhəmiyyətsiz məbləği təmsil etdiyindən, Cəmiyyət pul vəsaitləri və onların ekvivalentləri üçün hər hansı bir kredit zərəri ehtiyatını tanımır.

31 dekabr 2019-cu il tarixinə nağd pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə qalıqların kredit keyfiyyəti Standart və Poor's Şirkətinin reytinqləri əsasında ümumiləşdirilə bilər:

	Yerli banklar	Xarici banklar	Cəmi
- Reytinqsiz	638,872	44,672	683,544
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**638,872**	**44,672**	**683,544**

31 dekabr 2018-ci il tarixinə nağd pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə qalıqların kredit keyfiyyəti Standart və Poor's Şirkətinin reytinqləri əsasında ümumiləşdirilə bilər:

	Yerli banklar	Cəmi
- Reytinqsiz	748,804	748,804
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**748,804**	**748,804**

2019-cu il üzrə Azərbaycan Respublikasının Standart və Poor's Şirkəti tərəfindən nəşr olunmuş beynəlxalq reytinqi (BB+/B) təşkil edir.

18. İSTİFADƏSİ MƏHDUDLAŞDIRILMIŞ ƏMANƏTLƏR

1 mart 2016-cı il tarixində yerli broker ilə, 21 sentyabr 2018-ci il tarixində xarici broker ilə imzalanmış müqavilənin şərtlərinə əsasən, istifadəsi marjinal ticarət əməliyyatları aparan müştərilərdən alınan məbləğlərin razılaşdırılmış müəyyən hissəsi məhdudlaşdırılmış əmanətlər olaraq Cəmiyyət tərəfindən istifadə edilməməlidir. Bank hesabında saxlanılan bu istifadəsi məhdudlaşdırılmış əmanətlər dərhal və ya ümumi biznes ehtiyacları üçün istifadə edilə bilməz və buna görə də pul vəsaitləri və onların ekvivalentlərindən çıxarılmışdır.

Cəmiyyətin istifadəsi məhdudlaşdırılmış əmanətlər üzrə ədalətli dəyərdə baş verən dəyişikliyin məbləği təxmini olaraq sıfıra bərabərdir.

31 dekabr 2019-cu il və 2018-ci il tarixlərinə istifadəsi məhdudlaşdırılmış əmanətlər müvafiq olaraq 1,006,218 AZN və 673,482 AZN təşkil etmişdir.

19. ƏSAS BROKERDƏN ALINACAQ MƏBLƏĞLƏR

1 mart 2016-cı il tarixində yerli broker ilə, 16 iyul 2019-cu il tarixində xarici broker ilı imzalanmış müqavilənin şərtlərinə əsasən, Cəmiyyət marjinal ticarət əməliyyatları aparan müştərilərdən alınan məbləğin razılaşdırılmış müvafiq bir hissəsini əsas broker şirkətinə köçürməlidir. Cəmiyyət onlayn ticarət platformasından istifadə edir və yerli broker şirkəti tərəfindən göstərilən xidmətlərə görə aylıq sabit icarə haqqı ödəyir. Cəmiyyət marjinal ticarət əməliyyatlarından yaranan zərərlərə görə məsuliyyət daşıyır və bu zərərləri/gəlirləri əsas broker şirkətinə/şirkətindən həftəlik olaraq ödəyir/alır.

21 sentyabr 2018-ci il tarixində Cəmiyyət aşağıdakı xidmətləri əldə etmək üçün xarici brokerlərlə müqavilələr bağlamışdır:

- Bir və ya daha çox maliyyə aləti ilə əlaqədar sifarişlərin qəbulu və ötürülməsi;
- Cəmiyyətin adından sifarişlərin icrası;
- Valyuta xidmətləri (FX spot bazarındakı əməliyyatlar da daxil olmaqla);
- Maliyyə alətlərinə nəzarət;
- Digər əlavə xidmətlər.

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Xarici baş brokerlərdən alınacaq məbləğlər	1,924,337	-
Yerli baş brokerdən alınacaq məbləğlər	1,566,461	1,856,524
Cəmi baş brokerlərdən alınacaq məbləğlər	**3,490,798**	**1,856,524**

Alınmış xidmətlər üzrə orta kredit müddəti tələb əsasında ödənilir. Əsas brokerdən alınacaq məbləğlərin qalıqları üzrə heç bir faiz hesablanmır.

Cəmiyyətin əsas brokerdən alınacaq məbləğlərlə bağlı ədalətli dəyər üzrə dəyişikliyi sıfıra yaxındır.

Cəmiyyət 18 saylı Qeydə təsvir olunmuş istifadəsi məhdudlaşdırılmış əmanətlərdən başqa, əsas broker şirkətindən alınacaq məbləğlər üçün heç bir girov təminatı almamışdır.

20. ALINACAQ KOMİSSİYA HAQLARI

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Brokerlik haqları üzrə alınacaq vəsaitlər	27,316	14,886
Spred əməliyyatlarının həcmləri üzrə alınacaq vəsaitlər	7,759	45,717
Cəmi alınacaq komissiya haqları	**35,075**	**60,603**

21. DİGƏR AKTİVLƏR

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Digər qeyri-maliyyə aktivləri		
Dövlət Sosial Müdafiə Fonduna ödənilmiş avanslar	7,436	-
Qeyri-maddi aktivlər üzrə əvvəlcədən ödənilmiş vəsaitlər	2,500	-
Ödənilmiş vergilər	-	40,083
Digər	3,084	-
Cəmi digər qeyri-maliyyə aktivləri	**13,020**	**40,083**
Cəmi digər aktivlər	**13,020**	**40,083**

22. BORC ALINMIŞ VƏSAİTLƏR

	31 dekabr 2019-cu il	31 dekabr 2018-ci il
Borc alınmış vəsaitlər üzrə uzun-müddətli hissə	-	117,229
Borc alınmış vəsaitlər üzrə cari hissə	-	52,969
Cəmi borc alınmış vəsaitlər	**-**	**170,198**

26 dekabr 2018-ci il tarixində Cəmiyyət ilə "Rabitəbank" ASC arasında kredit müqaviləsi imzalanmışdır. Bu razılaşmaya əsasən, Cəmiyyət 26 dekabr 2018-ci il və 23 yanvar 2019-cu il tarixlərinə müvafiq olaraq, 100 min ABŞ dolları və 350,000 ABŞ dolları məbləğlərində kredit almışdır. Bu kredit illik 7% sabit nominal faiz dərəcəsi ilə verilmişdir. 2019-cu il ərzində bu obyekt üzrə qalıq məbləği tam olaraq ödənilmişdir.

Borc vəsaitlərinin coğrafi, valyuta və faiz dərəcəsi təhlili 28 saylı Qeyddə açıqlanmışdır.

Maliyyələşdirmə fəaliyyəti üzrə müvafiq pul vəsaitləri və nağdsız dəyişikliklərlə borc vəsaitlərinin ilin əvvəlinə və sonuna olan məbləğlərinin üzləşdirilməsi aşağıda qeyd olunmuşdur:

	Məbləğ
1 yanvar 2018-ci il	**-**
Pul vəsaitləri axınları	
Daxilolmalar	170,000
Nağdsız dəyişikliklər	
Faiz xərci	198
31 dekabr 2018-ci il	**170,198**
Pul vəsaitləri axını	
Daxilolmalar	595,000
Yenidən ödənişlər	(765,000)
Ödənilmiş faiz	(19,899)
Nağdsız dəyişikliklər	
Faiz xərci	19,701
31 dekabr 2019-cu il	**-**

23. İCARƏ ÖHDƏLİKLƏRİ

	31 dekabr 2019-cu il	**1 yanvar 2019-cu il**	**31 dekabr 2018-ci il**
Cari icarə öhdəlikləri	8,512	18,396	-
Uzunmüddətli icarə öhdəlikləri	-	8,512	-
Cəmi icarə öhdəlikləri	**8,512**	**26,908**	**-**

31 dekabr 2019-cu il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

	Minimal icarə ödənişi müddəti		
	1 il ərzində	**1 ildən 5 ilə kimi**	**Cəmi**
İcarə ödənişləri	8,725	-	8,725
Maliyyə tutulmaları	(213)	-	(213)
31 dekabr 2019-cu il tarixinə xalis cari dəyər	**8,512**	**-**	**8,512**

1 yanvar 2019-cu il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

	Minimal icarə ödənişi müddəti		
	1 il ərzində	**1 ildən 5 ilə kimi**	**Cəmi**
İcarə ödənişləri	20,940	8,725	29,665
Maliyyə tutulmaları	(2,544)	(213)	(2,757)
1 yanvar 2019-cu il tarixinə xalis cari dəyər	**18,396**	**8,512**	**26,908**

İlin əvvəlinə və ilun sonuna olan icarə öhdəliklərinin məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıdakı kimi göstərilir:

	Məbləğ
1 yanvar 2019-cu il	**26,908**
Pul vəsaitləri axınları	
Əsas məbləğin yenidən ödənilməsi	(18,396)
Ödənilmiş faiz	(2,544)
Nağdsız dəyişikliklər	
Faiz xərci	2,544
31 dekabr 2019-cu il	**8,512**

24. MÜŞTƏRİLƏRƏ ÖDƏNİLƏCƏK MƏBLƏĞLƏR

İl ərzində müştərilər onlayn marjinal ticarətlə məşğul olmaq üçün Cəmiyyətin ABŞ dolları ilə olan bank hesabına əmanət yerləşdirirlər. Müqaviləyə əsasən, bu əmanətlər tələb üzrə müştəriyə ödənilir.

31 dekabr 2019-cu il və 2018-ci il tarixlərinə müştəri qalıqları müvafiq olaraq, 4,378,241 AZN və 2,533,185AZN təşkil etmişdir.

Göstərilən xidmətlərlə bağlı ödənişlər üzrə orta kredit müddəti 1 aya qədərdir. Müştərilərə aid olan qalıqlar üzrə heç bir faiz ödənilmir.

Cəmiyyətin müştərilərə ödəniləcək vəsaitləri üzrə ədalətli dəyər dəyişikliyinin məbləği sıfıra yaxındır.

Cəmiyyət müştərilərdən alınmış vəsaitlərin təminatı olaraq heç bir girov qoymamışdır.

25. DİGƏR ÖHDƏLİKLƏR

	31 dekabr 2019-cu il	**31 dekabr 2018-ci il**
Digər maliyyə öhdəlikləri:		
Hesablanmış xərclər	20,865	11,395
Cəmi digər öhdəliklər	**20,865**	**11,395**

26. SƏHMDAR KAPİTALI

31 dekabr 2019-cu il və 2018-ci il tarixləri arasında Cəmiyyətin təsdiq edilmiş, yerləşdirilmiş və tam ödənilmiş səhmdar kapitalı 300,000 AZN təşkil etmişdir və hər biri 3 manat dəyərində olan 100,000 adi səhmdən ibarət olmuşdur.

Dividendlər

Dividendlər yalnız hesabat tarixindən əvvəl və ya hesabat tarixində bəyan edildikdə öhdəlik kimi tanınır və hesabat tarixində kapitaldan çıxılır. Dividendlər hesabat tarixindən əvvəl bəyan edildikdə və ya hesabat tarixindən sonra, lakin maliyyə hesabatları dərc olunmamışdan əvvəl razılaşdırıldıqda və ya bəyan edildikdə, bu məlumat maliyyə hesabatlarında açıqlanır.

İl ərzində bəyan edilmiş və ödənilmiş dividendlər aşağıdakılardan ibarətdir:

	31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə	**31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə**
İl ərzində bəyan edilmiş dividendlər	-	130,000
İl ərzində ödənilmiş dividendlər	-	(130,000)
Ödəniləcək dividendlər	**-**	**-**

27. TƏƏHHÜDLƏR, ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

Məhkəmə proseduraları

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Öz təxminləri, eləcə də həm daxili, həm də xarici peşəkar məsləhətlə əsasında Cəmiyyətin rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün yaradılmamışdır.

Vergi qanunvericiliyi

Cəmiyyətə tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən belə qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında baş vermiş son hadisələr əsasında vergi orqanlarının qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilməsi və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilməsi qənaətinə gəlmək olar. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Azərbaycan vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəalyyəti yoxlanıla bilər.

Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi xarici valyuta və gömrüklə bağlı Cəmiyyətin mövqelərində əhəmiyyətli dəyişikliklər baş verməyəcək.

Kapital məsrəfləri ilə bağlı öhdəliklər

31 dekabr 2019-cu və 2018-ci il tarixlərinə Cəmiyyətin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli öhdəlikləri mövcud olmamışdır.

Fidusiar fəaliyyətlər

31 dekabr 2019-cu və 2018-ci il tarixlərinə Cəmiyyət müştəriləri adından investisiya fəaliyyətini icra etmək üçün fidusiar müqavilələr əsasında heç bir məbləği müştərilərin vəsaitlərini sərəncamında saxlamışdır.

28. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi funksiyası Cəmiyyət tərəfindən maliyyə riskləri (kredit riski, coğrafi, valyuta, likvidlik və faiz riski), əməliyyat riskləri və hüquq riskləri ilə əlaqədar icra edilir. Risklərin idarə edilməsi funksiyasının əsas məqsədi risk sərhədlərini təyin etmək və sonradan riskərin o sərhədlər arasında saxlanılmasını təmin etməkdir. Əməliyyat və hüquq risklərinin idarə edilməsi funksiyaları əməliyyat və hüquq risklərinin azaldılması məqsədilə daxili qayda və proseduraların təmin edilməsini nəzərdə tutur.

Kredit riski

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallar, kredit riski kimi tanınır. Cəmiyyətin fəaliyyəti üçün əsas risk mənbələri broker şirkətləri və fərdi müştərilərdir.

Yeni bir münasibət yaranarkən broker şirkəti kredit riskinin parametrlərinə uyğun təhlil edilir və təhlil hər altı aydan bir yenilənir (və ya daha tez-tez, məsələn, brokerin korporativ strukturunda dəyişiklik olduqda). Bu broker şirkəti üçün nəzərdə tutulan maksimum məruz edilmə limitləri, sonra idarə heyəti tərəfindən nəzərdən keçirilir və təsdiq edilir. Konsentrasiya riskinin idarə olunmasının bir hissəsi olaraq, Cəmiyyət hər bir aktiv sinfi üçün bir çox brokerlərin saxlanmasını dəstəkləyir. Mümkün olduğu təqdirdə, Cəmiyyət müştərinin mövqeyini qorumaq üçün onun əlavə vəsaitlər təmin etməsi üçün danışıqlar aparır ki, bu da birbaşa kredit riskini azalda bilər.

Ehtimal olunan kredit zərəri (EOKZ) üzrə ölçülmələr – anlayışlar

EOKZ, gələcək pul çatışmazlığının cari dəyərinin (kredit zərərlərinin orta çəkili dəyəri, verilmiş müddətə istifadə edilən müvafiq defolt riskləri ilə) ehtimal olunan təxminidir. EOKZ ölçüsü qərəzsizdir və bir sıra mümkün nəticələrin qiymətləndirilməsi ilə təyin edilir.

Diskont Dərəcəsi – hesabat tarixində ehtimal edilən zərərin indiki dəyərə endirilməsi üçün bir alətdir. Diskont dərəcəsi maliyyə aləti üçün effektiv faiz dərəcəsini (EFD) və ya onun təxmini uyğunlaşdırılmasını əks etdirir.

Ömürlük müddət – EOKZ-in ölçülməsi üçün maksimal müddət. Sabit ödənişli kreditlər üçün ömürlük müddət qalan müqavilə müddətinə bərabərdir. Sabit ödəmə müddəti olan kreditlər üçün ömürluk müddət qalan müqavilə müddətinə bərabərdir. Kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri üçün, bu, kreditin uzadılması üçün müəssisənin müqavilə öhdəliyi olan maksimal müqavilə müddətidir. Fiziki şəxslərə verilən kredit kartları üçün daxili statistikaya əsaslanır və 3 ilə bərabərdir.

Ömürlük EOKZ – maliyyə alətinin qalan ömür müddəti ərzində mümkün olan defolt hallarında baş verən itkilər.

12 aylıq EOKZ – maliyyə alətləri üzrə defolt hallarının baş verməsi nəticəsində meydana çıxan EOKZ əks etdirən EOKZ-lərin bir qismi, maliyyə alətinin qalan müqavilə müddəti ilə məhdudlaşdıran hesabat tarixindən 12 ay ərzində mümkündür.

Proqnozlaşdırılan məlumat – hər bir portfel seqmenti üçün kredit riskini və gözlənilən kredit itkilərinə təsir edən əsas makroiqtisadi dəyişiklikləri ehtiva edən məlumat. 9 saylı MHBS maddəsinə uyğun olaraq, EOKZ-nin qiymətləndirilməsində geniş konsepsiya, proqnozlaşdırılan məlumatları nəzərdən keçirməkdir.

Satın alındıqda və ya əldə edildikdə kredit dəyərsizləşməsinə uğramış aktivlər (SƏKD) ilkin tanımada kredit dəyərsizləşməsinə məruz qalmış maliyyə aktivləridir.

Aşağı kredit riskli maliyyə aktivləri – xarici reytinq agentlikləri və ya müvafiq daxili reytinq tərəfindən investisiya dərəcəsi verilmiş aktivlər, Azərbaycan Respublikası tərəfindən buraxılmış və manatla irəli sürülmüş borc alətləri, Azərbaycan Respublikasında qeydiyyatda olan şirkətlərə verilmiş manatla kreditlər. Maliyyə aktivləri üzrə ödənişlərin 30 gündən çox gecikməsi halında ilkin tanınma tarixinə nisbətən kredit riskində əhəmiyyətli dərəcədə artımın baş verməsi ehtimalı istisna edilməmişdir.

Ardıcıl altı aylıq müddət ərzində heç bir defolt meyarlarına cavab vermədikdə, alət artıq defolt vəziyyətində mövcud hesab edilmir (yəni, artıq bərpa olunmuşdur).

EOKZ-nin ölçülməsi – qiymətləndirmə üsullarının təsviri

Ümumi prinsip

SƏKD olmayan maliyyə aktivləri üçün, EOKZ, ilk olaraq tanınma tarixindən sonra borcalanın kredit riskinə əhəmiyyətli dərəcədə artmış olub-olmamasına bağlı olaraq, iki müxtəlif müddətdən biri üzrə defolt riskinə əsasən qiymətləndirilir. Bu yanaşma EOKZ ölçülməsi üçün üç mərhələli bir modeldə göstərilə bilər:

- Mərhələ 1: ilkin tanınma zamanı kredit zərərinə məruz qalmamış maliyyə aləti və onun kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdır; zərərin ödənilməsi 12 aylıq EOKZ-lərə əsaslanır.
- Mərhələ 2: ilkin tanınmadan sonra KRƏA-nın müəyyən edildiyi təqdirdə, maliyyə aləti Mərhələ 2-yə köçürülür, lakin hələ də kredit zərərinə məruz qalmamışdır; zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır.
- Mərhələ 3: maliyyə aləti kredit zərərinə məruz qalarsa, maliyyə aləti daha sonra Mərhələ 3-ə köçürülür və zərərin ödənilməsi ömürlük EOKZ-lərə əsaslanır.

SƏKD maliyyə aktivləri üçün EOKZ həmişə ömürlük ölçülür (Mərhələ 3), buna görə hesabat tarixində Bank yalnız ömürlük ehtimal olunan kredit zərərlərindəki məcmu dəyişiklikləri tanıyır.

Cəmiyyət EOKZ ölçülməsi üçün üç ayrı yanaşma həyata keçirə bilər:

- Fərdi əsasda qiymətləndirmə;
- Portfel əsasında qiymətləndirmə: fərdi əsasda, lakin eyni kredit riski parametrləri ilə təxmin edilən daxili reytinq. (məsələn DE, DZYZ) eyni kredit riski reytinqi və kredit portfelinin həmcins seqmentləri üzrə EOKZ hesablamaları zamanı tətbiq edilir;
- xarici reytinqə əsaslanan qiymətləndirmə.

Ümumiyyətlə, EOKZ aşağıdakı kredit riski parametrlərinin birləşməsidir: DVRMQ, DE və DNZ (parametrlərin tərifləri yuxarıda göstərilmişdir). EOKZ hesablanması üzrə ümumi yanaşma aşağıda göstərilmişdir. Bu yanaşma portfel əsasında qiymətləndirilmiş məhsullar üzrə və bankın həmin məhsul üzrə borcalanını xüsusi məlumatı əsasında kredit riski reytinqi qiymətləndirməsi olan məhsul üzrə tətbiq oluna bilər.

EOKZ növbəti 12 ay və ya ömürlük alətlər üzrə kredit riski paramterlərinin (EAD, DE və DZYZ) proqnozlaşdırılması ilə müəyyən edilir. Bu üç komponent birlikdə artırılır və qalıq ehtimalı (yəni əvvəlki dövrdə ödənilmiş və ya defolt vəziyyətində riskə məruz qalmışdır) üzrə düzəliş edilir.

Marja riski

Cəmiyyət müştəri mənfəət və gəlirinin müştərinin hesabında müntəzəm olaraq yenilənməsi ilə marjinal ticarət platformasında real vaxt rejimində fəaliyyət göstərir. Marja riski əsasən müştərinin Cəmiyyətə depozit olaraq qoyduğu cəmi vəsaitlər, yaranmış ticari zərərlərini qarşılamaq üçün yetərli olmadığı zaman yaranır.

Xüsusilə, bazarda əhəmiyyətli, ani hərəkətlər olduqda, yəni ümumi bazar dəyişkənliyi və ya müştərinin açıq mövqeyi olduğu fərdi maliyyə alətinə aid yüksək xüsusi dəyişkənlik mövcud olduğu zaman yarana bilər.

Cəmiyyət marja riskini bir sıra vasitələrlə azaldır, lakin ləğv etmir. Buraya "mövqeni bağlamaq üçün monitorinq" vasitəsilə müştəri mövqeyinə real vaxt rejimində nəzarət edilməsi, müştərilərin müqavilənin bağlanılacağı səviyyənin əvvəlcədən təyin etmək qabiliyyəti ("dayanma" səviyyəsi və "zəmanətli dayanma" səviyyəsi), müxtəlif səviyyəli marjalardan istifadə daxildir.

Bu risk həmçinin müştəri üzrə davamlılıq meyarlarının tətbiq edilməsi vasitəsilə əhəmiyyətli mövqelər üzrə müştərilərdən tələb olunan marjanın artırılması, eləcə də müştərilərin ticarət və risklərin iarə olunması üzrə bütün mövzularda maliyyə biliklərinin artırılması məqsədi ilə müfəssəl təlimlərin təşkil olunması və nəticə etibarilə müştərilərin öz hesabları üzrə minimal tələb olunan səviyyədən daha artıq vəsaitlə təmin olunmasının təşviq edilməsi vasitəsilə qismən idarə olunur.

Cəmiyyətin "bağlanma nəzarəti" tətbiq edilən müştəriləri

"Bağlanma nəzarəti" (BN) - ləğvetmə həddini pozmuş hesabların avtomatik olaraq təsbit edildiyi avtomatlaşdırılmış bir ləğvetmə prosesidir. Burada, müştəri zərərlərinin ümumi kapitalı müəyyən edilmiş ləğvetmə səviyyəsindən aşağı düşdükdə, ləğv olunur, nəticədə Cəmiyyət üçün kredit riskinə məruz qalma riski azalır.

Həm "bağlanma nəzarəti", həm də müştəri tərəfindən yaradılan "bağla əmrləri" bazar riskinin Cəmiyyətə keçməsi ilə nəticələnir. Bazar riski, əsas müştəri mövqeyinin Cəmiyyətin ("Bazar riski" bölməsində müzakirə olunan bazar riski limitlərinə məruz edildiyi təqdirdə) bağlanmasının ardından, kifayət qədər bazar likvidliyini ehtiva edən müvafiq hedcinq mövqeyinə malik ola bilər.

Bundan əlavə, müştərilərin bir qismi "Limitli Risk" hesabları adlanan hesablar açır. Belə hesablar üçün səviyyə əvvəlcədən müəyyən edilir (müqavilə üzrə "zəmanətli dayanma" səviyyəsi), yəni müştərinin maksimal zərəri ticarətin açılmasında hesablana bilər. Müştərilər zəmanətli dayanma səviyyələri ilə vəsaitlərin yerləşdirilməsi üzrə hər bir əməliyyatda kiçik bir mükafat ödəyir. Maksimal zərər məbləği müştəridən ticarətə başlamaq üçün qoyulması tələb olunan əmanət məbləğidir, yəni əksər hallarda müştərinin itkisi ilkin marja əmanətindən artıq ola bilməz. Artıq yeni müştərilərə bu təklifin olmamasına baxmayaraq, Cəmiyyətin hələ də bu hesab növü üzrə əhəmiyyətli sayda müştəriləri mövcuddur.

Bazar riski

Cəmiyyət bazar riskinə məruz qalır. Bazar riski ümumi və xüsusi bazar dəyişiklərinə məruz qalan xarici valyuta və faiz gəliri/xərci yardan aktiv və öhdəliklərdə olan açıq mövqedən yaranır. Rəhbərlik qəbul edilə bilən risk səviyyələri üzrə məhdudiyyətlər təyin edir və onların gündəlik monitorinqini keçirir. Buna baxmayaraq, bu metodun istifadə edilməsi daha zəruri bazar dəyişikləri baş verdikdə bu çərçivələrdən kənar zərərlərin qarşısını ala bilməz.

Xarici valyuta riski

Xarici valyuta riskini idarə edərkən üzrə Rəhbərlik xarici valyuta riskinə qarşı konkret valyutalar üzrə və ümumi limitlər təyin edir. Nəzarət hər ay həyata keçirilir.

Aşağıdakı cədvəl 31 dekabr 2019-cu il tarixinə xarici valyuta məzənnələrinin dəyişilməsindən yaranan risk dərəcələrini əks etdirir:

	AZN	ABŞ dolları	Cəmi
MALİYYƏ AKTİVLƏRİ			
Pul vəsaitləri və onların ekvivalentləri	42,311	641,233	683,544
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	-	1,006,218	1,006,218
Əsas brokerdən alınacaq vəsaitlər	-	3,490,798	3,490,798
Alınacaq komissiya haqları	27,316	7,759	35,075
İnvestisiya qiymətli kağızları	559,941	-	559,941
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**629,568**	**5,146,008**	**5,775,576**
MALİYYƏ ÖHDƏLİKLƏRİ			
Müştərilərə ödəniləcək məbləğlər	-	4,378,241	4,378,241
İcarə öhdəlikləri	8,512	-	8,512
Digər öhdəliklər	20,865	-	20,865
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**29,377**	**4,378,241**	**4,407,618**
AÇIQ VALYUTA MÖVQEYİ	**600,191**	**767,767**	**1,367,958**

Aşağıdakı cədvəl 31 dekabr 2018-ci il tarixinə xarici valyuta məzənnələrinin dəyişilməsindən yaranan risk dərəcələrini əks etdirir:

	AZN	ABŞ dolları	Cəmi
MALİYYƏ AKTİVLƏRİ			
Pul vəsaitləri və onların ekvivalentləri	1,632	747,172	748,804
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	-	673,482	673,482
Əsas brokerdən alınacaq vəsaitlər	-	1,856,524	1,856,524
Alınacaq komissiya haqları	14,886	45,717	60,603
İnvestisiya qiymətli kağızları	315,024	-	315,024
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**331,542**	**3,322,895**	**3,654,437**
MALİYYƏ ÖHDƏLİKLƏRİ			
Müştərilərə ödəniləcək məbləğlər	-	2,533,185	2,533,185
Borc alınmış vəsaitlər	-	170,198	170,198
Digər öhdəliklər	11,395	-	11,395
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**11,395**	**2,703,383**	**2,714,778**
AÇIQ VALYUTA MÖVQEYİ	**320,147**	**619,512**	**939,659**

Yuxarıdakı təhlillərə yalnız maliyyə aktivləri və öhdəlikləri daxildir. Qeyri-maliyyə aktivləri əhəmiyyətli valyuta risklərinin yaranmasına gətirib çıxarmır. Ticarət əməliyyatları nəticəsində xarici valyuta riskinə nəzarət Cəmiyyətin müqavilə əsasında cəlb etdiyi kənar maliyyəçi tərəfindən müntəzəm olaraq həyata keçirilir və aşağıdakı qaydada idarə olunur:

i Hər səviyyə üzrə xarici valyutalar arasında mövqelərin və və bu valyutalar üzrə müvafiq likvidlik səviyyələrinin monitorinqi;

ii Xarici valyutaların, xüsusilə də ABŞ dollarının, məzənnələrində gələcək dəyişmələrin proqnozlaşdırılması; və

iii İdxal-ixrac əməliyyatlarına cəlb edilmiş əsas müştərilərlə olan Cəmiyyətin fəaliyyətinin və əməliyyatlarının təhlili.

Cəmiyyətin mənfəət və zərərinə təsirindən əlavə valyuta dəyişmə dərəcələrində belə dəyişikliklərin Cəmiyyətin kapitalına təsiri mövcud deyil. Məruz qalma Cəmiyyət müəssisəsinin əməliyyat valyutası olmayan valyutada əks etdirilən maliyyə qalıqları üçün hesablanır.

Xarici valyuta riskinə həssaslıq

Aşağıdakı cədvəl Cəmiyyətin müvafiq xarici valyutaların Azərbaycan manatına nisbətən məzənnəsində 10%-lik artım və ya azalmasına həssaslığını təhlil edir. 10% rəhbərlik tərəfindən xarici valyuta risklərini təhlil edərkən daxili risk hesabatlarında istifadə olunan həssaslıq dərəcəsidir və xarici valyuta məzənnəsinin dəyişməsinin Cəmiyyətə təsirini təhlil rəhbərlik tərəfindən istifadə olunur. Həssaslıq təhlili yalnız xarici valyutada ifadə edilmiş qalıq monetar vəsaitləri ehtiva edir və xarici valyuta məzənnələrində 10%-lik dəyişiklik nəzərə alınmaqla onların dövrün sonundakı valyuta mövqeyinin bir valyutadan digərinə çevrilməsinə düzəliş edir. Aşağıdakı müsbət rəqəmlər Azərbaycan manatının müvafiq valyutaya qarşı 10% dərəcədə güclənməsi müqabilində mənfəət və digər kapital vəsaitlərində baş vermiş artımı göstərir. Müvafiq valyutaya nisbətən Azərbaycan manatının 10% zəifləyəcəyi təqdirdə mənfəət və digər kapital üzərində müqayisə edilə bilən təsir mövcud olardı və aşağıdakı qalıqlar mənfi olardı.

	31 dekabr 2019-cu il tarixinə	
	ABŞ dolları/AZN +10%	**ABŞ dolları/AZN -10%**
Vergidən əvvəlki mənfəətə xalis təsir	76,777	(76,777)

	31 dekabr 2018-ci il tarixinə	
	ABŞ dolları/AZN +10%	**ABŞ dolları/AZN -10%**
Vergidən əvvəlki mənfəətə xalis təsir	61,951	(61,951)

Likvidlik riski

Likvidlik riski müəssisənin maliyyə öhdəliklərini yerinə yetirməsi zamanı çətinliklərlə üzləşəcəyi riskdir. Cəmiyyət əlində olduğu pul vəsaitləri üzrə gündəlik tələblərə məruz qalır. Likvidlik riski Cəmiyyətin Maliyyə dertamenti tərəfindən idarə edilir. Rəhbərlik hər ay Cəmiyyətin pul vəsaitləri hərəkətinin dəyişdirilən proqnozlarının monitorinqini keçirir.

Cəmiyyət likvidliyin idarə olunması üçün rəhbərliyi öhdəliklərin yerinə yetirilməsi üçün zəruri likvidlik aktivləri səviyyəsinin hesab edilməsini; maliyyələşdirmə vəsaitlərinin əldə olunması üzrə imkanların saxlanılmasını, idarəetmə qaydalarına qarşı təəhhüdlər planı və nizamnamə tələblərinə qarşı maliyyə vəziyyəti üzrə likvidlik əmsalının monitorinqinin keçirilməsini tələb edir.

Kənardan cəlb edilmiş maliyyə mütəxəssisləri gündəlik likvidlik mövqeyinin monitorinqini və normal və ciddi bazar şərtlərini əhatə edən mütəmadi likvidlik mövqeyinin yoxlanılmasını keçirir. Kənardan cəlb edilmiş maliyyə mütəxəssislərinin öhdəliklərinə aşağıdakılar daxildir:

i pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və maliyyə menecerinə hesabatın verilməsi, əgər zəruridirsə;

ii likvidlik riskinin toplaşması faktoru kimi ən böyük təchizatçıların monitorinqi;

iii lazım olduqda, orta və qısamüddətli borlcların əldə edilməsi məqsədi ilə yerli və beynəlxalq bazarlara fəal cəlb edilmə; və

iv Cəmiyyətin inkişaf edən fəaliyyəti sayəsində mümkün olan pul vəsaitləri hərəkətinin monitorinqi.

31 dekabr 2019-cu il tarixinə maliyyə öhdəliklərin ödəniş təhlili aşağıda göstərilən kimi olmuşdur:

	Tələb edilənədək və 1 aydan az	1 aydan 3 aya kimi	3 aydan 1 ilə kimi	1 ildən 5 ilə kimi	Ödəniş tarixi təyin edilməyib	Cəmi
MALİYYƏ AKTİVLƏRİ						
Pul vəsaitləri və onların ekvivalentləri	683,544	-	-	-	-	683,544
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	1,006,218	-	-	-	-	1,006,218
Əsas brokerdən alınacaq vəsaitlər	3,490,798	-	-	-	-	3,490,798
Alınacaq komissiya haqları	35,075	-	-	-	-	35,075
İnvestisiya qiymətli kağızları	-	-	-	499,941	60,000	559,941
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**5,215,635**	**-**	**-**	**499,941**	**60,000**	**5,775,576**
MALİYYƏ ÖHDƏLİKLƏRİ						
Müştərilərə ödəniləcək məbləğlər	4,378,241	-	-	-	-	4,378,241
İcarə öhdəlikləri	1,661	3,383	3,468	-	-	8,512
Digər öhdəliklər	20,865	-	-	-	-	20,865
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**4,400,767**	**3,383**	**3,468**	**-**	**-**	**4,407,618**
Likvidlik boşluğu	814,868	(3,383)	(3,468)	499,941	60,000	1,367,958
MƏCMU LİKVİDLİK BOŞLUĞU	**814,868**	**811,485**	**808,017**	**1,307,958**	**1,367,958**	

31 dekabr 2018-ci il tarixinə maliyyə öhdəliklərin ödəniş təhlili aşağıda göstərilən kimi olmuşdur:

	Tələb edilənədək və 1 aydan az	1 aydan 3 aya kimi	3 aydan 1 ilə kimi	1 ildən 5 ilə kimi	Ödəniş tarixi təyin edilməyib	Cəmi
MALİYYƏ AKTİVLƏRİ						
Pul vəsaitləri və onların ekvivalentləri	748,804	-	-	-	-	748,804
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	673,482	-	-	-	-	673,482
Əsas brokerdən alınacaq vəsaitlər	1,856,524	-	-	-	-	1,856,524
Alınacaq komissiya haqları	60,603	-	-	-	-	60,603
İnvestisiya qiymətli kağızları	155,024	-	100,000	-	60,000	315,024
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**3,494,437**	**-**	**100,000**	**-**	**60,000**	**3,654,437**
MALİYYƏ ÖHDƏLİKLƏRİ						
Müştərilərə ödəniləcək məbləğlər	2,533,185	-	-	-	-	2,533,185
Borc alınmış vəsaitlər	4,456	8,591	39,922	117,229	-	170,198
Digər öhdəliklər	8,641	-	2,754	-	-	11,395
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**2,546,282**	**8,591**	**42,676**	**117,229**	**-**	**2,714,778**
Likvidlik boşluğu	948,155	(8,591)	57,324	(117,229)	60,000	939,659
MƏCMU LİKVİDLİK BOŞLUĞU	**948,155**	**939,564**	**996,888**	**879,659**	**939,659**	

Maliyyə öhdəliklərinin diskontlaşdırılmamış ödəmə müddətlərinə görə təhlili

Aşağıdakı cədvəllər Cəmiyyətin maliyyə öhdəlikləri üzrə razılaşdırılmış ödəmə müddəti ilə qalıq müqavilə müddətini əks etdirir. Cədvəllər, Cəmiyyətin ödəməsi tələb oluna biləcəyi ən erkən tarixə əsasən maliyyə öhdəliklərinin uçota alınmamış pul vəsaitlərinin hərəkəti əsasında tərtib edilmişdir.

Cədvəllər həm faiz, həm də əsas pul vəsaitlərinin hərəkəti daxildir. Faiz axınları dəyişkən dərəcədirsə, bölüşdürülməmiş məbləğ hesabat dövrünün sonundakı faiz əyrilərindən əldə edilir. Müqavilənin müddəti, Cəmiyyətin ödəməsi tələb oluna biləcəyi ən erkən tarixə əsaslanır.

Aşağıdakı cədvəl 31 dekabr 2019-cu il tarixinə diskontlaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə təhlilini göstərir:

	Tələb əsasında və 1 aydan az	**1 aydan 3 aya kimi**	**3 aydan 1 ilə kimi**	**1 ildən 5 ilə kimi**	**Ödəmə müddəti müəyyənləşdi-rilməmişdir**	**Cəmi**
MALİYYƏ ÖHDƏLİKLƏRİ						
Müştərilərə ödəniləcək vəsaitlər	4,378,241	-	-	-	-	4,378,241
İcarə öhdəliklər	1,745	3,490	3,490	-	-	8,725
Digər öhdəliklər	20,865	-	-	-	-	20,865
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**4,400,851**	**3,490**	**3,490**	**-**	**-**	**4,407,831**

Aşağıdakı cədvəl 31 dekabr 2018-ci il tarixinə diskontlaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə təhlilini göstərir:

	Tələb əsasında və 1 aydan az	**1 aydan 3 aya kimi**	**3 aydan 1 ilə kimi**	**1 ildən 5 ilə kimi**	**Ödəmə müddəti müəyyənləşdi-rilməmişdir**	**Cəmi**
MALİYYƏ ÖHDƏLİKLƏRİ						
Müştərilərə ödəniləcək vəsaitlər	2,533,185	-	-	-	-	2,533,185
Borc alınmış vəsaitləri	5,250	10,500	47,250	125,963	-	188,963
Digər öhdəliklər	8,641	-	2,754	-	-	11,395
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**2,547,076**	**10,500**	**50,004**	**125,963**	**-**	**2,733,543**

Coğrafi risk konsentrasiyası

31 dekabr 2019-cu il tarixinə Cəmiyyətin aktiv və öhdəliklərin coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

	Azərbaycan Respublikası	İƏİT ölkələri	Qeyri-İƏİT ölkələri	Cəmi
MALİYYƏ AKTİVLƏRİ				
Pul vəsaitləri və onların ekvivalentləri	638,872	44,672	-	683,544
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	1,006,218	-	-	1,006,218
Əsas brokerdən alınacaq vəsaitlər	1,566,461	1,922,688	1,649	3,490,798
Alınacaq komissiya haqları	35,075	-	-	35,075
İnvestisiya qiymətli kağızları	559,941	-	-	559,941
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**3,806,567**	**1,967,360**	**1,649**	**5,775,576**
MALİYYƏ ÖHDƏLİKLƏRİ				
Müştərilərə ödəniləcək məbləğlər	4,378,241	-	-	4,378,241
İcarə öhdəlikləri	8,512	-	-	8,512
Digər öhdəliklər	20,865	-	-	20,865
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**4,407,618**	**-**	**-**	**4,407,618**
XALİS MÖVQE	**(601,051)**	**1,967,360**	**1,649**	**1,367,958**

31 dekabr 2018-ci il tarixinə Cəmiyyətin aktiv və öhdəliklərin coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

	Azərbaycan Respublikası	Cəmi
MALİYYƏ AKTİVLƏRİ		
Pul vəsaitləri və onların ekvivalentləri	748,804	748,804
İstifadəsi məhdudlaşdırılmış əmanətlər	673,482	673,482
Əsas brokerdən alınacaq vəsaitlər	1,856,524	1,856,524
Alınacaq komissiya haqları	60,603	60,603
İnvestisiya qiymətli kağızları	315,024	315,024
CƏMİ MALİYYƏ AKTİVLƏRİ	**3,654,437**	**3,654,437**
MALİYYƏ ÖHDƏLİKLƏRİ		
Müştərilərə ödəniləcək məbləğlər	2,533,185	2,533,185
Borc alınmış vəsaitlər	170,198	170,198
Digər öhdəliklər	11,395	11,395
CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ	**2,714,778**	**2,714,778**
XALİS MÖVQE	**939,659**	**939,659**

29. KAPİTALIN İDARƏ EDİLMƏSİ

Kapitalın idarə edilməsində Cəmiyyətin məqsədləri onun fəaliyyətinin davam etmək qabiliyyətini qorumaq üçün iştirakçıların mənfəətini qaytarmaq və kapitalın uyğunluq nisbətinə nail olmaq üçün kafi kapital bazasını saxlamaqdır.

Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 29 sentyabr 2015-ci il tarixində kapitalın minimal məbləği ilə bağlı mövcud tələblərinə əsasən, mövcud investisiya şirkətləri məcmu kapitalın minimal məbləğini 300,000 AZN həcmində saxlamalıdırlar. Hesabat dövrü ərzində, Cəmiyyət tənzimləyici qurum tərəfindən kapital üzrə müəyyən olunmuş tələblərə tam şəkildə cavab vermişdir.

30. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

31 dekabr 2019 və 2018-ci il tarixlərinə Cəmiyyətin tələb etdiyi ödənişlərin ödənilməsi üçün maliyyə aktivlərinin (əsas brokerdən alınacaq vəsaitlər və istifadəsi məhdudlaşdırılmış əmanətlər) və maliyyə öhdəliklərinin qalıq dəyərləri (müştərilərə aid olan məbləğlər) onların ədalətli dəyərinə təxminən bərabərdir.

Növbəti cədvəldə ədalətli dəyər ilə ölçülməmiş maliyyə alətlərinin ədalətli dəyəri və ədalətli dəyərin kateqoriyalaşdırıldığı ədalətli dəyər iyerarxiyasındakı dərəcəsi ilə təhlili göstərilmişdir.

		Ədalətli dəyər ölçüsü			
	Qiymətləndirmə tarixi	**Aktiv bazarda kvota olunmuş qiymət (Səviyyə 1)**	**Əhəmiyyətli dərəcədə müşahidə olunan məlumatlar (Səviyyə 2)**	**Əhəmiyyətli dərəcədə müşahidə olunmayan məlumatlar (Səviyyə 3)**	**Cəmi**
Ədalətli dəyərin açıqlandığı aktivlər					
Pul vəsaitləri və onların ekvivalentləri	31 dekabr 2019-cu il	683,544	-	-	683,544
İnvestisiya qiymətli kağızları	31 dekabr 2019-cu il	-		499,941	499,941
Alınacaq komissiya haqları	31 dekabr 2019-cu il	-	-	35,075	35,075
Ədalətli dəyərin açıqlandığı öhdəliklər					
İcarə öhdəlikləri	31 dekabr 2019-cu il	-	-	8,512	8,512
Digər öhdəliklər	31 dekabr 2019-cu il	-	-	20,865	20,865

		Ədalətli dəyər ölçüsü			
	Qiymətləndirmə tarixi	**Aktiv bazarda kvota olunmuş qiymət (Səviyyə 1)**	**Əhəmiyyətli dərəcədə müşahidə olunan məlumatlar (Səviyyə 2)**	**Əhəmiyyətli dərəcədə müşahidə olunmayan məlumatlar (Səviyyə 3)**	**Cəmi**
Ədalətli dəyərin açıqlandığı aktivlər					
Pul vəsaitləri və onların ekvivalentləri	31 dekabr 2018-ci il	748,804	-	-	748,804
İnvestisiya qiymətli kağızları	31 dekabr 2018-ci il	-	-	255,024	255,024
Alınacaq komissiya haqları	31 dekabr 2018-ci il	-	-	60,603	60,603
Ədalətli dəyərin açıqlandığı öhdəliklər					
Borc alınmış vəsaitlər	31 dekabr 2018-ci il	-	-	170,198	170,198
Digər öhdəliklər	31 dekabr 2018-ci il	-	-	11,395	11,395

31. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

2019-cu ilin sonunda Çinin Uhan şəhərində yeni tip koronavirus aşkarlanmışdır. 31 dekabr 2019-cu il tarixinə xəstəliyin yayılma coğrafiyası və qeydə alınmış xəstə sayı məhdud olduğundan, bu vəziyyət MHBS üzrə hazırlanmış maliyyə hesabatlarına düzəliş edilməsi üçün təsirə malik olmamışdır. Lakin 2020-ci ilin yanvar ayından başlayaraq, vəziyyətdə köklü dəyişikliklər qeydə alınmağa başlamış və 2020-ci ilin mart ayında yeni tip koronavirus Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya olaraq elan edilmişdir.

Digər dünya ölkələrində olduğu kimi, Azərbaycan Respublikası hökuməti də pandemiyaya qarşı mübarizə üçün müxtəlif tədbirlər, o cümlədən səyahət məhdudiyyəti, karantin, iş yerlərinin və digər yerlərin, eləcə də müəyyən ərazilərin bağlanması üzrə tədbirlər həyata keçirmişdir. Bu tədbirlər qlobal tədarük zəncirinə, həm də mal və xidmətlərə olan tələb səviyyəsinə təsir göstərmiş və aktiv qiymətlərinin və valyuta məzənnələrinin daha çox dəyişkən olmasına, uzunmüddətli perespektivdə faiz dərəcələrinin nəzərəçarpacaq dərəcədə azalmsı ilə müşahidə olunan biznes əməliyyatlarının əhəmiyyətli dərəcədə pozulmasına və iqtisadi qeyri-müəyyənliyin artmasına səbəb olmuşdur. Hökumətin pandemiyaya qarşı mübarizə tədbirləri və bu tədbirlərin müsbət nəticələri davam etməkdədir.

Dünya iqtisadiyyatında baş verən geriləmə ilə yanaşı, 2020-ci ilin mart ayında OPEC və Rusiyanın iştirak etdiyi görüşlərdə hasilatın azaldılması barədə razılıq əldə oluna bilməməsindən sonra, neftin qiyməti kəskin dərəcədə aşağı düşmüşdür. Baş vermiş hadisələr və mövcud vəziyyət, şirkətlərin əvvəllər üzləşmədiyi və maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir ola biləcək qeyri-müəyyənlik və risk səviyyələri yaratmışdır. Hazırda rəhbərlik gələcək inkişaf üçün müxtəlif ssenariləri altında fəaliyyət planları üzərində işləyir.